QARABAĞ AZƏRBAYCANDIR!

# Arazı... zülm ilə ayırdılar



10

SƏS

№ 017 (6700) 31 yanvar 2023-cü il. Qiyməti 60 qəpik

# “Biz, həqiqətən, iki dost və tərəfdaşıq!”



2

# Tehranın nəbzi yoxlanılır...



6

## YAP Gənclər Birliyi və AK Parti Gənclik Qolları arasında görüş keçirilib



3

## “Qərbi Azərbaycana qayıdış könüllü olacaq”



4

## Daşıyıcı ana kimdir?



7

## Vətən öz igid oğulları ilə qürur duyur!



4

## Fars şovinisti + millət xainləri = RİYAKARLIQ!



13

# “Biz, həqiqətən, iki dost və tərəfdaşıq!”

## *Azərbaycan Prezidenti İlham Əliyev Macarıstana rəsmi səfər edib*

**Macarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 30-da Macarıstan Prezidenti xanım Katalin Novak ilə təkbətək görüşü olub. dövlət başçıları əvvəlcə birgə foto çəkdiriblər, daha sonra Prezident İlham Əliyev xatirə kitabına ürək sözlərini yazıb.**



Dünən Budapeştdə Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşü olub. Macarıstan Prezidenti Katalin Novak:

- Bir daha, xoş gəlmisiniz. Nümayəndə heyətləri üzrxahlığı qəbul etsin, çünki görüş gözləniləndən çox çəkdi. Müzakirə edəcəyimiz məsələlər o qədər çox idi ki, hətta bu vaxtdan da artıq çəkə bilərdi. Lakin ümid edirik ki, gələn dəfə təkbətək görüş üçün daha çox vaxt ayrılacaq.

Gəldiyinizə görə hamınıza minnətdarıq. Macarıstana rəsmi

### İlham Əliyev:
### "Azərbaycan və Macarıstan öz münasibətlərini artıq strateji tərəfdaşlıq kimi müəyyən edib"

### Macarıstan Prezidenti:
### "Enerji resurslarımızı şaxələndirmək üçün bizə yaxşı dost və tərəfdaşlar lazımdır"

səfərinizdən şəxsən şərəf hissi duyuram. Bilirəm ki, dünən artıq yaxşı proqramınız olub. Ümid edirəm ki, icra hakimiyyətinin rəhbəri, Baş nazirlə keçiriləcək görüşlə səfəriniz yaxşı davam edəcək. Mən isə dövlət başçısı olaraq dövləti təmsil edirəm.





Artıq qeyd etdiyim kimi, Siz nümayəndə heyətinin üzvləri ilə sarayın qarşısındakı meydanda qarşılanma zamanı tanış oldunuz. Lakin bizim yeni energetika nazirini hələ görməmisiniz. Enerji sahəsində əməkdaşlıq ölkələrimiz arasında ən mühüm məsələlərdən biridir.

Əfsuslar olsun ki, sizdən fərqli olaraq, bizim bəxtimiz o qədər də gətirməyib. Yüz ildən artıq dövr ərzində biz öz təbii enerji sərvətlərimizdən məhrum olmuşuq. Onlar artıq bizdə deyil. Enerji resurslarımızın şaxələndirilməsi üçün bizə yaxşı dost və tərəfdaşlar lazımdır. Çünki bildiyimiz kimi, hazırda biz Rusiyanın neft və qazından asılıyıq. Biz həmin məsələni, hazırda davam edən müharibəni və gözləntiləri müzakirə etdik. Bir sözlə, cənab Prezident, səfərinizə görə bir daha minnətdarıq.

Azərbaycan Prezidenti İlham Əliyev:

- Təşəkkür edirəm, xanım Prezident. Dəvətə görə minnətdaram. Gözəl ölkənizə rəsmi səfərdə olmaqdan böyük şərəf hissi duyuram. Fürsətdən istifadə edərək, mən Sizə uyğun olan vaxtda sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istərdim və beləcə, biz dialoqumuzu davam etdirə bilərik.

Macarıstanda yenidən olmaqdan məmnunam. Qeyd etdiyiniz kimi, dünən bizim Baş nazirlə çox dostcasına, qeyri-rəsmi və eyni zamanda, müzakirələrlə dolu görüşümüz oldu. Bu gün biz söhbəti davam edəcəyik.

Nümayəndə heyətinin bütün üzvləri mənim göstərişlərimi alıblar ki, ikitərəfli gündəlikdə duran mühüm məsələlərin həlli üçün öz həmkarları ilə daim əlaqədə olsunlar. Əlbəttə ki, enerji gündəliyimizdə birinci yerdədir. Bu gün biz mühüm Anlaşma Memorandumunu imzalayacağıq və mən bunu çox mühüm addım hesab edirəm, çünki o, qaz təchizatı sahəsində əməkdaşlığa başlamaq üçün imzalanacaq ilk sənəddir.

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Xüsusilə Macarıstanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim dəstək göstərdiyi qeyd edilib. Macarıstan ilə Azərbaycan arasında qarşılıqlı hörmət və etimadın olduğu vurğulanıb. Macarıstanın Cənubi Qafqaz regionu, həmçinin Xəzər dənizi hövzəsi və Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin inkişafı qeyd olunub.

Ölkələrimizin ailə dəyərləri mövzusunda əməkdaşlığı barədə danışılıb, bu xüsusda beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin həyata keçirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanda və Macarıstanda ailə dəyərlərinə böyük diqqətin göstərildiyi bildirilib.

Söhbət zamanı tələbə mübadiləsinin, Macarıstan tərəfindən azərbaycanlı tələbələrə təhsil təqaüdlərinin ayrılmasının iki ölkənin gənclər sahəsində əməkdaşlığına töhfə verdiyi diqqətə çatdırılıb. Görüşdə, həmçinin minaların təmizlənməsi sahəsində əməkdaşlığa da toxunulub.

Dünən Budapeştdə Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə əvvəlcə məhdud tərkibdə, daha sonra geniş tərkibdə görüşü olub. Macarıstanın Baş naziri Viktor Orban çıxış edərək bildirib ki, ölkələrimiz mühüm dostluğu indi yox, çoxdan başlayıblar:

- Cənab Prezident, ölkəmizə səfər etdiyinizə görə Sizə olduqca minnətdarıq. Biz iki ölkə arasında əməkdaşlıq üçün strateji əhəmiyyət kəsb edən bütün məsələləri müzakirə etdik.

Ardı Səh. 3





# “Biz, həqiqətən, iki dost və tərəfdaşıq!”

## *Azərbaycan Prezidenti İlham Əliyev Macarıstana rəsmi səfər edib*

**Əvvəli Səh.2**

Xalqlar arasında son onillik ərzində əlaqələrin və ənənəvi əməkdaşlığın gücləndirilməsinə mərhələli şəkildə verdiyiniz töhfəyə görə minnətdarıq. Biz bunu yüksək dəyərləndiririk. Ölkələrimiz mühüm dostluğu indi yox, çoxdan başlayıblar. Siz təkcə enerjiyə görə bizim dostumuz deyilsiniz. Təsəvvür edirəm, indi Sizin yeni dostlarınız var. Çünki dünyada ölkənizin strateji əhəmiyyəti artmaqdadır. Lakin əməkdaşlığımız lap çoxdan başlayıb və təkcə maraqlara əsaslanmır, həmçinin mədəniyyət, adət-ənənələr sahəsindəki işbirliyinə söykənir.

Cənab Prezident, Siz Macarıstanın Türk Dövlətləri Təşkilatına qoşulmasına hər zaman dəstək vermisiniz. Biz bunu yüksək dəyərləndiririk. Macarıstan türkdilli dövlət kimi həmin platformada iştirak edən ölkədir və bu, bizim üçün nəinki mədəni, o cümlədən siyasi baxımdan əhəmiyyətlidir. Bir sözlə, cənab Prezident, ölkəmizə, Budapeştə çox xoş gəlmisiniz. Səfərinizə görə çox minnətdarıq. Keçmişdə təşəkkül tapmış dərin əməkdaşlığımızı yüksək dəyərləndiririk və ümid edirik ki, o gələcəkdə də davam edəcək.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, münasibətlərimizin artıq yaxşı tarixi var. Bu, qarşılıqlı dəstək və etimad, eləcə də tərəfdaşlıq və dostluq tarixidir:

- Təşəkkür edirəm, cənab Baş nazir. Sizi görməyimə çox şadam. Əməkdaşlığınıza görə minnətdaram. Biz, həqiqətən, iki dost və tərəfdaşıq. Biz öz münasibətlərimizi artıq strateji tərəfdaşlıq kimi müəyyən etmişik. Bu gün isə biz əməkdaşlığımızın strateji mahiyyətini təsdiqləyəcək digər sənədə imza atacağıq. Cənab Baş nazir söylədiyi kimi, münasibətlərimizin artıq yaxşı tarixi var. Bu, qarşılıqlı dəstək və etimad, eləcə də tərəfdaşlıq və dostluq tarixidir. Bu, həqiqətən, böyük zənginlikdir. Buna görə, biz hazırda əməkdaşlığın yeni sahələrini araşdırırıq. Tərəfdaşlığımız üçün artıq çox möhkəm zəmin yaranıb. Cənab Baş nazir qeyd etdiyi kimi, enerji əməkdaşlığımızın bir hissəsinə çevrilir. Əvvəlcə, bu, heç zaman olmamışdır. Buna görə, əməkdaşlığımızın enerji tarixçəsi yoxdur. Elə oldu ki, hazırda Azərbaycanın enerji resursları əvvəlki dövrlə müqayisədə Avropaya daha çox lazımdır. Biz öz təchizatımızı artırmağa hazırıq və əlbəttə ki, əməkdaşlığı dost ölkələrlə başlamaq istəyirik. Bu gün, biz enerji sahəsində uzunmüddətli işbirliyinə imkan yaradacaq müvafiq Anlaşma Memorandumunu imzalayacağıq. Lakin, təkcə bu sahə deyil, çünki biz təhsil və mədəniyyət sahələrində əməkdaşlıq edirik. Biz Qarabağ bölgəsində yenidənqurma işlərində macar şirkətlərini görməyi ümid edirik. Bu gün, biz cənab Baş nazirlə bu və digər məsələləri müzakirə etdik. Mən, həmçinin fürsətdən istifadə edərək, cənab Baş nazir, Sizə münasib vaxtda Sizi Azərbaycana səfərə və fəal dialoqumuzu davam etdirməyə dəvət edirəm. Qonaqpərvərliyə görə bir daha minnətdaram.

Görüşdə enerji, təhsil və nəqliyyat sahələrində, həmçinin beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri müzakirə olunub. Habelə əməkdaşlığın inkişafında hökumətlərarası komissiyanın əhəmiyyəti qeyd edilib, əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilib.

Dünən həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Macarıstan sənədləri imzalanıb. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban yanvarın 30-da Budapeştdə mətbuata bəyanatlarla çıxış ediblər.

# YAP Gənclər Birliyi və AK Parti Gənclik Qolları arasında görüş keçirilib

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin nümayəndə heyəti qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının dəvəti ilə bu ölkədə səfərdədir. Səfər çərçivəsində yanvarın 30-da Ankarada YAP Gənclər Birliyi və AK Parti Gənclik Qollarının nümayəndələri arasında görüş keçirilib.





YAP Gənclər Birliyinin nümayəndə heyətini salamlayan AK Parti Gənclik Qollarının sədri Eyyup Kadir İnan bu səfərin qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması, çoxşaxəli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O, YAP Gənclər Birliyinin nümayəndələrinin Ankaraya səfər edərək 2023-cü ildə Türkiyədə keçiriləcək prezident seçkiləri öncəsi aparılan hazırlıq prosesində AK Parti Gənclik Qollarına dəstək ifadə etməsinin vacib əhəmiyyət kəsb etdiyini söyləyib.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. YAP Gənclər Birliyi və AK Parti Gənclik Qolları arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd edən Bəxtiyar İslamov qarşılıqlı təmasların intensiv xarakter daşıdığını və bu amilin gənclərimizin bir-birinə daha da yaxınlaşmasında xüsusi rol oynadığını diqqətə çatdırıb. B.İslamov ölkə başçıları cənab İlham Əliyevin və cənab Rəcəb Tayip Ərdoğanın iradəsi və möhkəm dostluğu sayəsində iki dövlət arasında bütün sahələrdə sarsılmaz əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. O, bu amilin iki ölkə gənclərinin də sıx təmasları və əməkdaşlığı üçün möhkəm bünövrə yaratdığını diqqətə çatdırıb. Görüşdə YAP Gənclər Birliyi və AK Partinin Gənclik Qolları arasında gələcək əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparılıb və müvafiq təkliflər diqqətə çatdırılıb. Sonra qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib. Qeyd edək ki, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun rəhbərlik etdiyi nümayəndə heyətinə Gənclər Birliyinin sədr müavinləri Fəsli Nəbiyev, Sevinc Qasımova və üzvləri Nərmin Qocaman, Kənan Kərimov daxildir.

# “Tehranda Azərbaycan Səfirliyinə qarşı törədilən terror hücumu ən ağır cinayətdir”

Terror və qətl etmək bütün səmavi dinlərdə yəni hər 3 dində qadağan olunmuş günah və cinayət əməlidir. Terrorun dili dini irqi yoxdur. Terror birmənalı olaraq ən ağır cinayət əməli və bağışlanmaz günahdır. Elə İslam dinində də terror və qətl etmək ən ağır günah sayılır. Dilindən dinindən və irqindən asılı olmayaraq terror törədən günahsız insan qanı axıdan qətl edən hər kəs kafirdir lənətlənməlidir. Hüquqi tərəfdən isə bütün beynəlxalq hüquq tendensiyalarına və qəbul edilən beynəlxalq konvensiyalara görə terror törədən şəxs ən ağır və ən təhlükəli cinayətkar hesab edilir. Azərbaycanın Tehrandakı Səfirliyinə qarşı törədilmiş xain terror əməli də ən ağır cinayət əməlidir. Səfirlik binası Diplomatik ərazidir və həmin ölkəyə məxsusdur və həmin əraziyə icazəsiz və zorla daxil olmaq beynəlxalq qanunlarla qəti qadağandır. Bir ölkənin Səfirliyinə cinayət yolu ilə zorla daxil olmaq özü ayrıca ağır cinayətdir. Həmçinin Səfirlik əməkdaşlarına silahlı hücum edərək qətl etmək və bütün əməkdaşları öldürməyə çalışmaq bu səbəblə bir neçə şəxsi ölümcül yaralamaq qanlı terrordur və mövcud dünya qanunları ilə ən ağır cinayət əməlidir. Bu hadisə təkcə Səfirlik əməkdaşlarına qarşı törədilmiş cinayət hadisəsi yox eyni zamanda bütövlükdə həmin ölkəyə qarşı törədilmiş əməldir.

Azərbaycanın İrandakı Səfirliyinə qarşı törədilmiş qanlı terror aktı qətiyyətlə pislənməli və lənətlənməlidir. Bu qanlı terror əməlinin arxasında mütləq ki hansısa mənfur və məkrli qüvvələr dayanır. Bu ağır cinayəti törədənlər və bu cinayəti planlayanlar ən ağır şəkildə cəzalanmalıdır. İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyi olaraq bu qanlı terror hadisəsini şiddətlə pisləyir Azərbaycan xalqına və dövlətinə terror hadisəsi zamanı həlak olan Səfirlik əməkdaşının ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verir hər zaman Azərbaycan dövlətinin və xalqının yanında olduğumuzu ifadə edirik.

***İsrail Təhlükəsizlik Akademiyasının***
***Qafqaz üzrə Azərbaycan Respublikasındakı***
***Regional Nümayəndəliyi***

# "Qərbi Azərbaycana qayıdış könüllü olacaq"

## SİA Qərbi Azərbaycan İcmasının sədr müavini, millət vəkili Ramil Həsənin APA-ya verdiyi müsahibəsini təqdim edir:

***- Ramil müəllim, öncəliklə Qərbi Azərbaycana Qayıdış Konsepsiyanın təsdiq edilməsi münasibətilə sizi təbrik edirəm. Söhbətimizə də elə buradan başlayaq: Qayıdış Konsepsiyası nə vəd edir?***

- Çox təşəkkür edirəm. Mən də hər birimizi təbrik edirəm.

Bildiyiniz kimi, cənab Prezidentin Qərbi Azərbaycan İcmasının binasının açılış mərasimindəki tarixi nitqindən sonra bir aydan çox müddətdir ki, biz Qayıdış Konsepsiyasının hazırlanması ilə bağlı mütəxəssislərə və Azərbaycan ictimaiyyətinə müraciət edərək və verilən təklifləri dəyərləndirərək ortaq müzakirələr əsasında Qayıdış Konsepsiyasını hazırlamışıq. Təhlükəsiz formada qərbi azərbaycanlıların ata-baba torpaqlarına qayıdışı ilə bağlı bütün prosedurları hüquqi cəhətdən özündə ehtiva edən bu konsepsiya yeddi istiqamətli hədəflərdən ibarətdir. Konsepsiyanın hazırlanmasında əsas məqsədlərdən biri beynəlxalq təhlükəsizliyin təmin edilməsidir. Bilirsiniz, qərbi azərbaycanlılar 1905-1906, 1918-1923, 1948-1953 və nəhayət, 1988-1991-ci illərdə öz yurdlarından qovulublar. Konsepsiya bu proseslər nəticəsində yurd-yuvalarından qovulmuş azərbaycanlıların və onların hüquqi varislərinin geri qayıtmasının təmin edilməsi, onların təhlükəsiz şəkildə yaşayışının təmin edilməsi, eyni zamanda, lazım olan iqtisadi-sosial təminatlarının həyata keçirilməsi, həmçinin Ermənistan hökumətindən tələb etmiş olduğumuz haqlı tələblərimizin yerinə yetirilməsi ilə bağlı beynəlxalq zəmanətin alına bilməsi ilə əlaqədar müddəaları özündə ehtiva edir.

***- Qayıdış Konsepsiyası beynəlxalq hüquqdakı hansı qanunları əsas götürür?***

- Beynəlxalq Qaçqınlar Konvensiyasında yer alan qaçqınların geri qayıdışına dair müddəalar, Mülki və Siyasi Hüququn Təminatı ilə bağlı Beynəlxalq Pakt, BMT-nin qəbul etmiş olduğu İnsan Hüquqları ilə bağlı Beynəlxalq Konvensiya, eyni zamanda, digər bu kimi insan hüquqları və azadlıqları, sərbəst və azad yaşayışın təminatı, həmçinin qaçqınların öz evlərinə qayıdışını təmin edən sənədlər burada əsas götürülüb.

***- Ramil müəllim, illər boyu düşmənçilik şəraitində yaşamış iki xalqın - söhbət azərbaycanlılarla ermənilərdən gedir - birgə yaşayışı ilə bağlı müəyyən problemlər çıxa bilər, bu, aydındır. Bununla bağlı nə düşünürsünüz?***

- Haqlısınız. Düzü, birinci mərhələdə Ermənistan hökumətinə güvənmirik. Bu baxımdan, prosesin yekunlaşacağı dövrə qədər icma hüquqi varis olduğu üçün qa-



yıdış həyata keçirildiyi müddətdə, həm də qayıdış həyata keçirildikdən sonra belə Ermənistan hökuməti, beynəlxalq təşkilatlar, eyni zamanda, bizə qucaq açan Ana Vətənimiz olan Azərbaycan hökuməti və digər strukturlar qarşısında rəsmi, hüquqi zəmanətimizin təmsilçisi olaraq, Qərbi Azərbaycan İcması öz fəaliyyətini davam etdirəcək. Yəni hər hansısa bir problem olacağı təqdirdə, icma rəsmi və hüquqi təmsilçilik missiyasını yerinə yetirəcək.

Biz tarixi ata-baba torpaqlarımızda bilavasitə reinteqrasiyanın, reabilitasiyanın tərkib hissəsi olacağıqsa, həm Ermənistan hökuməti BMT tərəfindən və BMT-yə üzv olan bütün dövlətlər tərəfindən tanınan öhdəlikləri, eyni zamanda, milli azlıqlarla bağlı üzərinə götürdüyü öhdəlikləri həyata keçirməsi ilə bağlı məsuliyyət daşımaqdadır. Bu məsuliyyəti dərk edib həyata keçirməsindən ötrü Qərbi Azərbaycan İcması qərbi azərbaycanlıların hüquqlarını və müdafiəsini qoruyan rəsmi bir struktur kimi çalışma planını özünə hədəf seçib.

***- Aydındır. Konsepsiyada Beynəlxalq Təhlükəsizlik missiyası öz əksini tapıb. Ümumiyyətlə, bu anlayış barədə danışmağınızı istəyirəm.***

- Burada beynəlxalq qüvvələrdən ibarət olan missiyanın qərbi azərbaycanlıların qayıdacağı ərazilərə öncədən yerləşdirilməsi və reinteqrasiya prosesi başa çatana qədər, xalqların bir-biri ilə normal qonşuluq münasibətində yaşaması prosesi baş tutana qədər o missiyanın özfəaliyyətinin davam etdirilməsi nəzərdə tutulur. Biz bu prosesdə Azərbaycan hökuməti və onun müvafiq qurumları ilə daimi məsləhətləşmələr aparırıq, köməyindən və dəstəyindən beynəlxalq təhlükəsizlik missiyasının formalaşması, eyni zamanda, vurulmuş maddi-mənəvi zərərin Ermənistan tərəfindən ödənilməsi ilə bağlı qarşıya çıxa biləcək bütün proseslərin beynəlxalq məhkəmələr qarşısında qaldırılması və Ermənistan hökumətindən tələb olunması ilə bağlı Qərbi Azərbaycan İcmasının qaldıracağı məsələlərin də hökumət və dövlət strukturu kimi Azərbaycan tərəfindən xahiş edəcəyik. Çünki bu məsələdə daim Azərbaycan hökumətinin dəstəyinə inamımızı ifadə edirik. Əminəm ki, qayıdış planımız normallaşma prosesini də özündə ehtiva edəcək. Düşünürəm ki, Ermənistan tərəfi bizim qayıdışımızın təminatını həyata keçirməklə bağlı öz məsuliyyətini dərk etməklə bərabər, həmçinin sərbəst şəkildə ana dilində təhsil, məhkəmə orqanlarında və icra strukturlarında Azərbaycan dilində öz fikirlərini, problemlərini ifadə eləməklə bağlı məsələlər də Ermənistan tərəfindən də təmin olunmalıdır.

***- Ramil müəllim, qayıdışın neçə mərhələdən ibarət olması nəzərdə tutulub?***

- Bu, bir neçə mərhələdən ibarət olacaq. Bu mərhələlərdən birincisi, sənədlər paketinin Azərbaycan ictimaiyyətinə və dünya ictimaiyyətinə təqdim edilməsidir. İkincisi, Ermənistan Respublikası və BMT-nin Qaçqınlar Ali Komissarlığı ilə birlikdə digər mərhələlərin həllinə start verməkdir. Biz məhz BMT-nin Qaçqınlar Ali Komissarlığının sözügedən prosesdə vasitəçi olmasını istəyirik.

Onu da deyim ki, qayıdış könüllü formada həyata keçiriləcək, məcburi yox. Həmçinin artıq insanların siyahıya alınması da başlayıb. Yaxın gələcəkdə bununla bağlı elektron sistem də tətbiq edəcəyik. Çünki bilirsiniz, dünyanın bir çox ölkəsinə səpələnmiş və kökü qərbi azərbaycanlılara bağlı olan və öz torpağına qayıtmağa həvəsli olanlar üçün bu sistem əlverişli olacaq. Növbəti mərhələdə iqtisadi və sosial cəhətdən o insanların təmin edilməsi nəzərdə tutulub. Eyni zamanda, kompakt şəkildə yaşayışlarını təmin etmək əsas məqsədimizdir. Əvvəllər də azərbaycanlılar orada kompakt formada yaşayıblar. O prosesin təmin olunması da əsas məqsədimizdir. Bilirsiniz, Qərbi Azərbaycanda kəndlərin əksəriyyətində azərbaycanlılar kompakt formada yaşayıb. Çox az sayda kənd var ki, orada hər iki millətin nümayəndəsi birlikdə yaşayıb. Mən həmçinin oraya qayıdan soydaşlarımızın təhlükəsizlik zəmanətinin verilməsini də qeyd eləmək istəyirəm. Evlərinin təmiri, yaxud inşası, iş yerlərinin tikilməsi, işlə təmin olunması məsələsini də Ermənistan hökumətindən tələb etməkdəyik. Yəni bu özü də mərhələli formada həyata keçiriləcək müddəalardan biridir.

Bilirsiniz ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar prosesi gedir. Bəzən bu Ermənistan tərəfinin məsuliyyətsizliyinə görə, dalana dirənir, ləngiyir, amma Azərbaycan qayıdış prosesinin sülh yolu ilə əldə etmək istədiyini davamlı formada vurğulayır. Biz arzu edirik ki, yaxın gələcəkdə imzalanması gözlənilən böyük sülh sazişinə qərbi azərbaycanlıların yurdlarına qayıtmaları ilə bağlı müvafiq bir müddəa da salınsın.





# Vətən öz igid oğulları ilə qürur duyur!

## Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumu zamanı şəhid olan Orxan Əsgərov dəfn edilib



Azərbaycanın Tehrandakı səfirliyinə xain terror hücumunun qarşısının alınması zamanı şəhid olan mühafizə xidmətinin rəisi Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edilib. Vida mərasimində dövlət və hökumət rəsmiləri, şəhidin yaxınları, Türkiyənin Azərbaycandakı səfiri və səfirliyin əməkdaşları, ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Şəhidin cənazəsi İkinci Şəhidlər xiyabanında yaylım atəşi altında torpağa tapşırılıb. Cənazənin üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim olunub. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Xatırladaq ki, yanvarın 27-də səhər saat 08:30 radələrində avtomat silah və çoxlu sayda güllə daraqları ilə silahlanmış şəxs Azərbaycanın İrandakı səfirliyinə qarşı xain terror hücumu törədib. Hücumun qarşısının alınması zamanı səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, iki nəfər isə yaralanıb.

Səfirliyin mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev əliyalın şəkildə terrorçunun üzərinə atılaraq, qorxmaz və çevik hərəkətləri ilə onu tərk-silah edib.

Azərbaycan Prezidenti İlham Əliyev hadisə ilə əlaqədar dərhal tviter hesabında paylaşım edərək bu xain terror aktını şiddətlə qınayıb, hücumun tezliklə araşdırılmasını və terrorçuların cəzalandırılmasını tələb edib. Azərbaycan Prezidenti diplomatik nümayəndəliklərə qarşı terror hücumunun qəbuledilməz olduğunu bildirib. Azərbaycan Xarici İşlər Nazirliyi də bəyanatında baş verənlərin terror aktı olduğunu qeyd edib və bu hücumla bağlı hərtərəfli təhqiqat aparılması və günahkarların məsuliyyətə cəlb olunmasını tələb edib.

Hadisədən sonra dövlətimizin başçısının tapşırığı ilə Azərbaycanın İrandakı səfirliyinin əməkdaşları və onların ailə üzvləri ölkəmizə təxliyə olunub. Azərbaycanın İrandakı səfirliyinin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri ötən gecə Bakıya gətirilib. Ümumilikdə 53 nəfər təxliyə olunub.

Qeyd edək ki, səfirliyimizə xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənib və qəbuledilməz hesab olunub. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilib.

# Azərbaycan -Türkiyə: ”bir millət, iki dövlət”!

*YAP Gənclər Birliyinin nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisində olub*



**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının dəvəti ilə qardaş ölkəyə səfər edən YAP Gənclər Birliyinin nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.**

Nümayəndə heyətini salamlayan Şamil Ayrım Azərbaycan ilə Türkiyənin ”bir millət, iki dövlət” fəlsəfəsinə əsaslanaraq bütün sahələrdə müttəfiqlik münasibətlərini uğurla inkişaf etdirdiyini vurğulayıb. O, ortaq hədəflərin reallaşmasında gənclərin üzərinə mühüm vəzifələr düşdüyünü söyləyərək bu səfərin gənclər arasında əməkdaşlığın dərinləşdirilməsinə müsbət təsir göstərəcəyinə inamını ifadə edib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov hər iki ölkənin dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin zirvədə olduğunu bildirib. O qeyd edib ki, iki qardaş ölkənin gəncləri Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına layiqli töhfə vermək əzmindədirlər. B.İslamov səfər çərçivəsində keçirilən görüşlərin gənclər arasında gələcək əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.



# Vaxtı və çevrəsi daralan Tehran

*Dronlar indi İranın öz başına düşür*

ANALİZ

Bazar günü gecə saatlarında naməlum pilotsuz təyyarələr İran Müdafiə Nazirliyinin obyektlərindən birinə hücum edib. The Wall Street Journal yazır ki, bunun arxasında İsrail dayanır. İranın özündə hələ ki, hadisəyə görə heç kim günahlandırılmayıb, lakin eyni zamanda, onlar israilliləri ölkədəki vəziyyətin sabitliyini pozmağa yönəlmiş media hücumunda ittiham etməyə nail olublar. İranın bəzi hərbi-siyasi dairələri İsrail və MOSSAD-ın adını tələffüz etməyə başlayıblar. Bəs İran niyə İsrailin adını tərəddüdlə çəkir? Axı SEPAH-ın yüksək rütbəli zabitləri zərbə endirən PUA-ların İsrail dövlətinə məxsus olduğunu deyirlər. Bəli, əsas məsələ də budur. İran onu vuranın kim olduğunu bilir, amma deməyə çəkinir. Bu da səbəbsiz deyil, əgər rəsmi Tehran PUA-ların kim tərəfindən göndərildiyini rəsmi olaraq açıqlasa, onda bu hücuma hücumla da cavab verməlidir. Ona görə də İranın rəsmi dairələri hücum edən ölkənin adını çəkmək istəmir.

Hadisə isə belə olub, 2023-cü il yanvarın 28-dən 29-na keçən gecə İranın Müdafiə Nazirliyinin zavodlarından birinə pilotsuz təyyarələrdən istifadə etməklə uğurlu hücum həyata keçirilib. İranın Müdafiə Nazirliyi bazar günü gecə İsfahandakı partlayışları şərh edərkən bildirib ki, ”həmin PUA-lardan biri hava hücumundan müdafiə sistemi tərəfindən vurulub, digər ikisi isə müdafiə tələlərinə düşdü və partlayıb”. Qeyd olunur ki, dronlardan biri binanın üzərinə düşərək ”cüzi ziyan” vurub, xəsarət alan olmayıb. Bu arada sosial şəbəkələrdə hücumun videoları aktiv şəkildə yayılıb. Bəlli olub ki, PUA zərbəsindən zavodun ərazisinə ciddi ziyan dəyib, dağıntılar və insane itkisi var.

İsfahandakı hərbi obyektə hücum İranın şimal-qərbində minə yaxın insanın xəsarət alması ilə nəticələnən 5,9 bal gücündə baş verən zəlzələdən sonra həyata keçirilib. Deməli olar ki, eyni vaxtda zəlzələnin episentrindən təxminən 120 km aralıda yerləşən Azərşəhr şəhərində motor yağı zavodunda yanğın baş verir. Sosial şəbəkələrdə bir anda İranın bir neçə şəhərində partlayışların baş verməsi barədə xəbərlər yayılıb, İsrailin İran ərazisinə kütləvi hücumu versiyası social şəbəkə və xəbər agentliklərinin manşetinə çevrilib.

Eyni zamanda, İran Müdafiə Nazirliyi əməliyyat şərhlərində heç kimə qarşı ittihamlar səsləndirməkdən çəkinərək, yalnız İsfahandakı obyektə zərbə endirilməsi barədə məlumat verib. Eyni zamanda İranın rəsmi xəbər agentliyi İRNA İsraili hücumda ittiham edib. ”İranın Əlburz, Həmədan, Qarec kimi şəhərlərində partlayışlar barədə sosial şəbəkələrdə və mediada yayılan bütün xəbərlər saxtadır”, İRNA qeyd edir ki, bu məlumatın yayılmasının arxasında İsrail dayanır. Agentlik həmçinin İranın müxtəlif şəhərlərində, o cümlədən Tehranda hava hücumu ilə bağlı İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) döyüşçülərinin öldürülməsi və həyəcan siqnalının işə salınması ilə bağlı yayılan xəbərləri də yalan şayiələr adlandırıb. Agentliyin fikrincə, İrandakı vəziyyəti təhlükəli kimi təqdim etmək və İran vətəndaşları arasında panika yaratmaq İsrailin maraqlarına uyğundur.

Bundan əvvəl İranın xüsusi xidmət orqanları İsraili onların ölkəsində sabitliyi pozmağa cəhd etməkdə ittiham etmişdi. Keçən həftə İslam İnqilabı Keşikçiləri Korpusu İranda bir sıra təxribat aktları törətməyi planlaşdıran İsraillə əlaqəli ondan çox terrorçu qrupun həbs edildiyini bildirdi. İddia olunurdu ki, İsrailin xarici kəşfiyyat xidməti Mossad İranda sentyabrın ortalarından bəri davam edən etiraz aksiyalarından istifadə edərək, bir iranlı hərbçinin məhv edilməsini, eləcə də ölkənin iri şəhərlərində təxribat əməliyyatları keçirməyi planlaşdırıb. İranda dekabr ayında İsrailin xeyrinə casusluq ittihamı ilə 4 nəfər edam edilib.

İranda zəlzələnin süni şəkildə baş verməsi ilə bağlı şayiələr absurddur. Bunun üçün güclü nüvə partlayışı lazımdır. Amma zəlzələnin özü də İran şəhərlərində baş verən digər hadisələr kimi motor yağı zavodunda yanğına səbəb ola bilərdi. İsfahandakı pilotsuz təyyarələrin hücumuna gəlincə, konkret hansı obyektdən söhbət getdiyini demək çətindir. İranın hərbi sənaye kompleksinin ərazisi çox genişdir. İsfahan da daxil olmaqla ölkənin bir çox əyalətlərində zavod və fabriklər var. Məsələn, ötə ilin oktyabr ayından noyabrın əvvəlinə kimi orada dron istehsalçısı ”Shahed Aviation Industries” şirkətinin istehsal gücünün genişləndirilməsi işləri sürətlə gedirdi. Məhz bu şirkət Kiyev və Qərb tərəfindən Ukraynada istifadə üçün Rusiyaya pilotsuz təyyarələr göndərməkdə ittiham olunurdu. Moskva və Tehran isə bunu inkar edirdi.

Son peyk görüntülərinə əsasən, İsfahanda şənbə günü pilotsuz təyyarənin hücumundan sonra Shahed Aviation Industries zavoduna ziyan dəyməyib. İranın hərbi və nüvə obyektlərinə hücumlar uzun müddətdir ki, yeni deyil. Son səs-küylü işlərə 2020-ci ilin iyulunda və 2021-ci ilin aprelində Natanzdakı nüvə obyektində hücum, həmçinin 2021-ci ilin iyununda Kərəcdəki nüvə obyektinə pilotsuz təyyarə hücumu daxildir.

Bunun arxasında kim dayanırsa, əl yazısı hər yerdə eynidir. İrandakı belə təxribatlara görə onlar ən mühüm obyektlərin yerin altına köçürülməsi üzrə artıq aktiv olan işləri sürətləndirdilər, həmçinin hava hücumundan müdafiə sistemləri, hər cür şəbəkələr, tələlər və digər əşyaların köməyi ilə yerdə qalan obyektlərin mühafizəsini gücləndirdilər. Başqa bir məsələ odur ki, hər bir obyekti örtmək çox çətin və həm də bahalıdır.

Ənənəvi olaraq Tehran demək olar ki, bütün hadisələrdə İsraili günahlandırır. Ola bilsin ki, yaxın günlərdə İsfahan hadisələri ilə bağlı oxşar bəyanatlar verilsin. İndiyədək Amerikanın ”The Wall Street Journal” qəzeti mənbələrə istinadən İsrailin məsuliyyəti barədə məlumat yayıb. WSJ qeyd edir ki, ”ABŞ və İsrail Tehranın nüvə və hərbi ambisiyalarının qarşısını almaq üçün yeni imkanlar axtararkən, İsrail İranın müdafiə obyektinə gizli İHA hücumu həyata keçirib”.

İsraillilərin özləri hadisəni şərh etmək istəmirlər. Eyni zamanda, İsrail hakimiyyəti dəfələrlə iranlılara birmənalı şəkildə xəbərdarlıq edib ki, onlar İranın nüvə proqramının inkişafına imkan verməyəcəklər. İsrailin baş naziri Benyamin Netanyahu ötən gün deyib ki, biz İranın ən ölümcül silahları əldə etmək istiqamətində necə durmadan irəlilədiyini görürük və biz buna imkan verməyəcəyik. Son iki həftə ərzində o, ABŞ-ın milli təhlükəsizlik müşaviri Ceyk Sullivan və Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börns ilə İran proqramını müzakirə ediblər.

Maraqlıdır ki, İsfahana pilotsuz təyyarə hücumu cənab Börnsün Benyamin Netanyahu və Mossaddakı israilli həmkarları ilə danışıqlarından bir gün sonra baş verib. ABŞ dövlət katibi Entoni Blinkenin yanvarın 30-da İsrailə başlayacaq səfəri zamanı İran mövzusu da müzakirə olunacaq.

Səudiyyə Ərəbistanının ”Əl Ərəbiyyə” telekanalının mənbələri iddia edir ki, İsfahana pilotsuz uçan aparatların hücumunda Amerika təyyarələri iştirak edib və bu hücumun hədəfi ballistik raketlərin olduğu anbar olub. Eyni zamanda, İsrail kəşfiyyat resursu Intelli Times öz Twitter səhifəsində İran Kosmik Tədqiqatlar İnstitutunun tədqiqat laboratoriyalarının İsfahanda vurulan obyektdə yerləşdiyini irəli sürüb.

Bu obyekt pilotsuz təyyarənin hücumu baş verən yerdən yolun o biri tərəfində yerləşir. Bundan əlavə, ”Intelli Times” qeyd edir ki, tətil İranın ali dini lideri Əli Xamneyinin pilotsuz təyyarələrin nümayişi də daxil olduğu Sənaye Nailiyyətləri Sərgisini açmasından bir neçə saat sonra baş verib. Eyni zamanda, ”Intelli Times” xatırladır ki, İsfahanda pilotsuz təyyarələrin istehsalı ilə yanaşı, İranın nüvə proqramı ilə bağlı bəzi obyektlər, o cümlədən yeni sentrifuqa zavodu yerləşir.

## İranda cəhənnəmi Mossadmı səhnələşdirdi?

”Hücum edilən İran obyekti raketlərin hazırlanması və istehsalında əsas mövqeni təmsil edir. Hücum İsrailin yəhudi dövlətinin təhlükəsizliyi ilə bağlı narahatlığı ilə başlayıb və təkcə Ukraynadakı döyüş əməliyyatları üçün Rusiya raketlərinin mümkün tədarükü ilə bağlı deyildi”. Bu, ”Nyu York Times” tərəfindən dərc edilmiş məqalənin qısa xülasəsidir. Məqalənin müəllifi materialı hazırlayarkən Amerikanın rəsmi mənbələrinin kəşfiyyat mənbələrinin şərhlərindən istifadə edib.

Mənbələr əməliyyatın arxasında Mossadın olduğunu bildirir. Onların sözlərinə görə, hücumda məqsəd İsrailə çata bilən orta mənzilli ”Şihab” raketlərinin istehsal olunduğu yerin məhv edilməsi olub. Ekspertlər qeyd ediblər ki, hücum ABŞ dövlət katibi Entoni Blinkenin Yaxın Şərq turnesinin başladığı gün və Mərkəzi Regional Mərkəzin rəhbəri Uilyam Börnsə İsraildə qalması başa çatdıqdan dərhal sonra həyata keçirilib. Analitiklər onu da qeyd ediblər ki, bu, Benyamin Netanyahunun hakimiyyətə qayıdışından sonra İsrail tərəfindən həyata keçirilən ilk böyük hərbi əməliyyatdır. Bundan əlavə, analitiklər hücum anının İsrail hökumətinin ədliyyə sistemində planlaşdırdığı islahatlara etirazların gücləndiyi vaxta təsadüf etdiyini vurğulayırlar.

Amerikanın ”Wall Street Journal” nəşri də İsrailin hücumun izinə düşdüyünü yazır. ABŞ və İsrail Tehranın nüvə və hərbi ambisiyalarını cilovlamaq üçün yeni yollar axtarır. Walla vəziyyətlə tanış olan mənbəyə istinadən yazır ki, zavod dörd pilotsuz təyyarə ilə hücuma məruz qalıb və qarşıya qoyulan vəzifələr və planın həyata keçirilməsi baxımından əməliyyat uğurlu hesab edilməlidir. Mənbə hədəfin yüksək texnologiyalı raket zavodu olduğunu bildirib.

İsfahanda 4 nüvə tədqiqat mərkəzi yerləşir və orada uzun illər əvvəl Çin tərəfindən İrana verilən reaktorlar quraşdırılır. Lakin hücuma məruz qalan obyektin, məqalədə qeyd olunur, atom enerjisinin mümkün istehsalı ilə heç bir əlaqəsi yoxdur.

Daha əvvəl xəbər verdiyimiz kimi, Amerika mətbuatında dərc olunan məlumatlara görə, hücum edən tərəf ”intiharçı” adlanan dörd rotorlu pilotsuz təyyarələrin modellərindən istifadə edib. Əvvəllər rəsmi Tehran bu dronların istifadəsini İsraillə əlaqələndirərək, 2021-ci ilin yayında Kərəcdəki sentrifuqa zavoduna və 2022-ci ilin mayında Tehrandakı hərbi-sənaye infrastruktur obyektinə hücumlar barədə məlumat vermişdi.

Beləliklə, İranda baş verən son hadisələr molla rejiminin sonunu yaxınlaşdırmaqla yanaşı, bu ölkədə farsların daimi basqısı altında yaşayan xalqların nəhayət azad olunmasını tezləşdirmək nöqteyi-nəzərindən əhəmiyyətli sayılmalıdır.

**V.VƏLİYEV**

AKTUAL+ÖZƏL

# Tehranın nəbzi yoxlanılır...

## İrana qarşı sıralarını artıran qeyri-rəsmi koalisiya öz qərarlarını verəcək - növbəti diplomatik raundları davam etdirmək, yoxsa... (?)

Şənbə günündən bazar gününə keçən gecədən başlayaraq İranın hərbi obyektlərinə endirilən sarsıdıcı zərbələrdən sonra ABŞ-ın İranla əsas danışıqlar aparan şəxsi - Qətərin xarici işlər naziri Muhamməd bin Abdulrəhman bin Cəssim əl-Tani Tehrana səfər etdi. Ola bilsin ki, Qətər XİN-nin rəhbərinin Tehrana səfəri daha öncədən də planlaşdırılmışdı, lakin İranın hərbi infrastrukturları dronlar tərəfindən hava zərbələrinə məruz qaldıqdan dərhal sonra həmin səfərin həyata keçiriləcəyini gözləmək olardı.

**FOTODA: Qətərin xarici işlər naziri Muhamməd bin Abdulrəhman bin Cəssim əl-Tani**

Və o da təsadüfi deyil ki, Muhamməd əl-Tani Tehrana gedərkən artıq Mərkəzi Kəşfiyyat İdarəsinin İran üzrə əsas mütəxəssislərindən hesab edilən Uilyams Berns də artıq İsrail yaxınlığında hadisələrin müşahidə-



sini aparırdı. O da sirr deyil ki, Qətərin XİN başçısının Tehrana səfəri, əsasən, diplomatik kəşfiyyat, yaxud nəbzi yoxlamaq məqsədini daşıyır.

## Qətərin XİN rəhbəri Tehranda, MKİ-nin mütəxəssisi isə İsrail yaxınlığında...

Bu arada, İranın xarici işlər naziri Hüseyn Əmir-Abullaiyan bəyan edib ki, Muhamməd əl-Taninin Tehrana səfəri 2015-ci ildə nüvə sazişinin iştirakçıları olan ölkələrinin ismarıclarını çatdırmaq məqsədini daşıyır. Amma bunun belə olmadığını da bir çoxları yaxşı bilirlər. Daha dəqiq desək, Qətərli baş diplomatın İrana səfərinin mühüm məqsədi Tehrana son şans verməklə bağlıdır. O, iranlı həmkarına təxminən belə bir sual ünvanlayacaq: "Siz bizim hərbi imkanlarımızın nə qədər güclü olduğunu anladınızmı? Bundan sonrakı dialoqun hansı məcrada aparılacağını da siz müəyyən edin...".

**FOTODA: Mərkəzi Kəşfiyyat İdarəsinin İran üzrə əsas mütəxəssislərindən hesab edilən Uilyams Berns**

Bəli, İranın hərbi mütəxəssisləri iddia





edə bilərlər ki, hava zərbələrinin effektləri zəif idi və s. Amma ortada olan faktlar bunu göstərmir. Təkcə İsfahandakı hərbi obyektlərin darmadağın edilməsi, həmçinin 25 ədəd hərbi yük kolonunun külünün göyə sovrulması, praktiki olaraq ölkə ərazisində mövcud olan bütün hərbləşdirilmiş infrastrukturların, o cümlədən "Şəhid" dronlarını istehsal edən zavodun vurulması iranlı rəsmilərin keflərinə, sözün əsl mənasında, soğan doğrayıb. Və bunlar hələ ki, kiçik ölçülü zərbələr idi...

## Tehranın "az zərər görmə" taktikası, sadəcə, iranlı diplomatlarının və hərbi ekspertlərinin ənənəvi bəyanatlarıdır

Ona görə də belə bir nəticə də hasil etmək olar ki, Tehranın "az zərər görmə" taktikası, sadəcə, iranlı diplomatlarının və hərbi ekspertlərinin ənənəvi bəyanatlarıdır. Halbuki sonradan o da bəlli olur ki, məhv edilən nöqtələrdən biri ən müasir avadanlıqlarla təchiz edilmiş nəhəng anbardır!

Bu gün İranın dövlət televiziyası, yaxud xəbər agentlikləri məlumat verirlər ki, hansısa hərbi obyektin, ya da anbarın damı az zərər görüb və yanğın da dərhal söndürülüb. Fəqət, digər tərəfdən də məlum olur ki, həmin müəssisələrin iş fəaliyyətləri ən azı bir aylıq müddətə dayanıb.

**FOTODA: İranın hərbi obyektlərindən birinin məhvi**



Başqa tərəfdən, İrana hava hücumu edən cinahlar heç də öz qarşılarına nəhəng dağıntılara səbəb olacaq əməliyyat planını qoymamışdılar. Əgər belə bir plan olsaydı, hər halda daha çox dronlardan və s. imkanlardan istifadə edilərdi. Reallıqda bu planın əsas məqsədi İrana onun havadan müdafiə sistemlərinin yararsız olduğunu, SEPAH-ın isə, ümumiyyətlə, belə hücumlara ani reaksiya vermək bacarığında olmamasını sübut etmək idi. Daha dəqiq desək, Tehran rejiminə sübut olundu ki, qarşıda daha ciddi hadisələr baş verə bilər.

## Ox yaydan çıxıb!

Artıq ox yaydan çıxıb və İranın son vaxtlar yalnız Yaxın Şərqdə deyil, həm də Cənubi Qafqazda özünü "ağa" kimi göstərmək cəhdləri, aqressiv davranışları, daha tez-tez "qırmızı xətt" tipli ifadələr işlətməsinə qarşı ilkin eyham vurulmalıydı!

Xüsusilə regionun mühüm aktoru olan Azərbaycana qarşı təhdidləri - səfirliyə terror hücumu, "barmaq sirkələmə" vasitələri, "Qüdsə gedən yolun Bakıdan keçməsini" göstərən sərsəm kliplərin hazırlanması", Araz çayı üzərindən guya Azərbaycana keçən panton körpülərin açılması belə də nəticələnməliydi. Biz hələ Tehranın ənənəvi xarakter almış digər qaynar nöqtələri ilə - İraqla, Suriya ilə, Yəmənlə bağlı bəyanatlarını demirik...

Tehran rejimi öz daxilində yaranmış böhrandan da söz yox ki, qıcıqlanır. Belə ki, 2022-ci ilin sentyabrından başlayan və bütün ölkə ərazisini bürüyən kütləvi iğtişaşlar ölkənin ali dini rəhbərliyini, habelə siyasi idarəçiliyini çıxılmaz hala doğru sürükləyir. Hətta ölkə rəhbərliyi adi danışıqlar masasında belə etirazçılarla dialoq mühitinə getmir, əksinə, kütləvi edamlar, cəzalar, repressiyalar, təqiblər nümayiş etdirməklə situasiyadan çıxa biləcəyini sanır.

## Moskvanın Tehrana ciddi yardımlar göstərməsi qeyri-mümkündür, Qərb isə İran məsələsində Türkiyə-Azərbaycan-İsrail faktorunu ciddi şəkildə anlayır...

Bəli, ola bilsin ki, Tehran Cənubi Qafqaz regionu müstəvisində Rusiya ilə hər hansı ortaq məxrəcə gələ bilməsə də, Moskva ilə münasibətlərinə arxalanmaqda davam edir. Əbəs deyil ki, Ukrayna ilə müharibədə Rusiyaya "Şəhid" dronlarını göndərən İran açıqaydın bunun əvəzini tələb edir. Məsələn, tələb edir ki, Tehranın hərbi ambisiyalarının təmin edilməsi üçün Moskva da hər hansı qarşılıqlı addımlara getməlidir. Fəqət, hazırda Moskvanın bu istəyi, ümumiyyətlə, görün-



mür. Ukrayna cəbhəsi və Qərblə açıq konfrontasiyalar Rusiyanı düşdüyü məngənədə sıxışdırır və Moskvanın Tehrana ciddi yardımlar göstərməsi qeyri-mümkündür. Rusiyaya Ukraynada düşdüyü tələdən sonra Cənubi Qafqazda ikinci cəbhənin açılması, ümumiyyətlə, sərf etmir.

Bu yerdə Türkiyə faktorunun da ayrıca yeri var. Sirr deyil ki, son illərdə Türkiyə ilə Rusiya arasında ciddi və qarşılıqlı anlaşmalar yüksələn xətlə inkişaf edir. Hər iki ölkə regiona olan təhdidlərin nə qədər zərərli olduğunu da yaxşı bilirlər. Ona görə də çox həssas bir dönəmdə Ankara və Moskva da mövcud anlaşma paralelliyini saxlamağa çalışırlar. Türkiyənin İran (eləcə də Ermənistan) məsələsində Azərbaycanla hansı səviyyədə münasibətlər saxlamasını isə artıq bir çoxları bilir. Bu müstəvidə də Rusiya öz həddini aşmağa cürət etmir.

Qərbə gəldikdə: Azərbaycanın hərbi-siyasi müttəfiqi olan Türkiyənin məhz Bakının səyləri və uğurlu vasitəçiliyi ilə İsraillə də münasibətlərinin nəinki normallaşdırılması, habelə daha da yaxşılaşdırması regionda kimin əsas söz sahibi olması faktını da ortaya qoyur. Ona görə də bu gün İranla birdəfəlik haqq-hesab çəkmək istəyində olan Qərb bu reallıqları da əlbəttə ki, nəzərdən keçirməli olur.

## İranın siyasi elitası ilə ali dini rəhbərliyi arasında nə baş verir?

Yeri gəlmişkən, İranın siyasi dairələrində də kəskin fikir ziddiyyətləri get-gedə artmağa başlayıb. Misal üçün, prezident İbrahim Rəisiyə dəstək göstərən tərəflərlə ölkənin ali dini rəhbəri Xamenei tərəfdarları arasında qarşıdurmalar mövcuddur. Daha dəqiq desək, Xameneinin davamçısı olaraq onun oğlunu - Müctəba Xameneini görmək istəyən SEPAH rəsmilərinin həmin iddialarına qarşı çıxanlar da məhz Rəisinin adamlarıdırlar.

**FOTODA: İranın ali dini lideri Xameneinin oğlu Müctəba Xamenei**



Artıq nə qədər gec olsa da, Qərb anlamağa başlayıb ki, İranın mövcud quruluşu yalnız regiona deyil, həm də beynəlxalq aləmə ciddi təhdiddir. Bu baxımdan, Qətər XİN-nin rəhbəri Muhamməd əl-Taninin Tehrana səfərinin ardınca o çox yəqin ki, Uilyam Brenslə də məsləhətləşmələr aparacaq, mövcud vəziyyəti bölüşəcək və onu qarşıda gözlənilən proqnozlarla bağlı hali edəcək. Əsasən isə, Tehranın hava zərbələrindən hansı nəticələr çıxardığını bildirəcək. Bunun ardınca isə İrana qarşı sıralarını artıran qeyri-rəsmi koalisiya öz qərarlarını verəcək - növbəti diplomatik raundları davam etdirmək, yoxsa... (?)

***Rövşən RƏSULOV***

# Daşıyıcı ana kimdir?

**Günümüzdə bir çoxumuz daşıyıcı ana kimi terminləri eşidəndə çaşırıq. Bəs, bu daşıyıcı ana nə deməkdir? Azərbaycanda bu anlayış varmı?**

Uşaq sahibi ola bilməyən cütlüklərin istifadə etdiyi alternativ üsullardan biri də surroqat analıqdır. Ölkəmizdə qadağan edilən surroqat analıq xaricdə bir çox ölkələrdə həyata keçirilə bilər. Bəzi qanuni öhdəlikləri ehtiva edən surroqat analıq laboratoriya şəraitində həyata keçirilir. Surroqat analıq iki







yolla həyata keçirilə bilər. Bunlardan birincisi surroqat ananın yumurtalıqlarından istifadə etməklə həyata keçirilən üsuldur. İkinci üsulda kişidən alınan sperma və qadından alınan yumurtalıq "daşıyıcı" sayılan qadının bədəninə yerləşdirilir. Bu embrionun inkişafı və böyüməsi qadının bədənində baş verir. Doğuşdan sonra körpə bu ailəyə verilir

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Ananın hamiləliyə uyğun uşaqlıq yolu olmadığı və ya uşaqlığı olmadığı halda laboratoriyada yumurta və sperma hüceyrələri ilə cütlərin mayalanmış embrionlarının başqa qadına köçürülməsi daşıyıcı analıqdır. Yəni, başqa cütlüyün körpəsini daşıyan bu qadına daşıyıcı ana deyilir. Daim surroqat analıq üçün müraciət edəcək cütlüklər öz yumurta və spermalarından istifadə etmək məcburiyyətində deyillər. Bu mümkün deyilsə, bütün ianə seçimləri nəzərdən keçirilməlidir.

Bir çox insan "Surroqat analıq nədir?" sualını verir. Əvvəlcə çətin bir proses kimi görünsə də, daha çox öyrəndikcə daha yaxşı başa düşülə bilən bir proses halına gəlir. Surroqat analığı bu qədər vacib və əvəzolunmaz edən hissə mayalanma prosesidir. Bu səbəbdən, digər IVF müalicələri nəticə vermədikdə "son həll" bu olur.

Bu müalicə yalnız hamilə qalmaq üçün uğursuz cəhdlərdən sonra tövsiyə olunur. Şübhəsiz ki, digər variantlar uğursuz olduqda ana olmaq arzusunu həyata keçirmək istəyənlər üçün ən təsirli həll yollarından biri məhz budur.

### Daşıyıcı analıq ilk dəfə necə yaranıb?

İlk dəfə 1986-cı ildə ABŞ-da tətbiq edilib. Ölkəmizdə surroqat analıq qadağan edilsə də, Kipr, Gürcüstan, Amerika, Hindistan kimi ölkələrdə sağlamlıq paketi adı altında surroqat analıq prosedurları həyata keçirilə bilər. Sağlamlıq paketi adı altında və ya başqa adla təklif olunan bu xidmətlər də müəyyən şərtlər qoyularaq yaradılır. Surroqat analıq anadangəlmə bətni olmayan və ya hər hansı səbəbdən bətni çıxarılan şəxslərə, qadının hamilə qalması və doğuşu əlverişsiz hesab edilən hallarda və ya anadangəlmə bətni olan qadınlara tətbiq edilən üsuldur.

### Surroqat analıq üsulu hansı şərtlərdə və nə üçün tətbiq edilir?

- Ana bətni ilə doğulmayan qadınlar.
- Əməliyyat nəticəsində bətni çıxarılan qadınlar (şiş, fibroma, xərçəng və s.).
- Doğuş anomaliyaları olan qadınlar.
- Hamiləlik və ya doğuşun risk daşıdığı hallarda (Ciddi ürək və ağciyər problemləri olan qadınlar, laxtalanma pozğunluğuna görə ölümcül risk altında olan qadınlar).
- Asherman sindromlu qadınlar (bir bətni olan, lakin hamiləlik üçün uyğun olmayan).
- Sosial səbəblərdən uşaq dünyaya gətirmək istəməyən qadınlar.

### Kim surroqat ana ola bilər?

- Gənc və sağlam qadınlar.
- Surroqat ana üçün sosial və psixoloji cəhətdən uyğun olan qadınlar.
- Heç bir yoluxucu xəstəliyi olmayan qadınlar.
- Siqaret çəkməyən, spirtli içki qəbul etməyən və ya narkotik asılılığı olmayan qadınlar.
- Əvvəlki hamiləlikləri sağlam doğuşla nəticələnən qadınlar.
- Gestational diabeti olmayan və ya əvvəlki hamiləlikdə preeklampsi olmayan qadınlar.
- Obez və ya anoreksiyası olmayan qadınlar (BMI indeksi, məsələn, sağlam diapazonda bədən kütləsi indeksi)
- Xroniki xəstəlikləri olmayan qadınlar (şəkərli diabet, yüksək təzyiq və s.)

### Surroqat ana bu prosesə necə hazırlaşır?

İlkin ginekoloji müayinələr mütəxəssislər tərəfindən aparılır. Lazımi testlər tələb olunur. Bundan əlavə, surroqat ananın psixoloji vəziyyəti onun hamiləliyə nə dərəcədə uyğun olduğunu yoxlamaq üçün nəzərdən keçirilir. Uterusun hamiləliyə hazırlanması üçün menstruasiya dövrü ilə birlikdə surroqat ananın müalicəsi planlaşdırılır. Bu müalicə müddətində müəyyən aralıqlarla ultrasəs müayinələri aparılır və uşaqlıq hazır olduqda embrion transferi həyata keçirilir. Dondurulmuş embrionlar varsa, bu embrionlar köçürülür. Dondurulmuş embrion yoxdursa, cütlüyün IVF müalicəsi surroqat ananın daxili bətn hazırlığı ilə sinxronlaşdırılır və laboratoriyada mayalanmış embrionlar müvafiq gündə surroqat anaya köçürülür.

### Surroqat anada psixi sağlamlıq niyə vacibdir?

Surroqat analıq tək uşaq sahibi olmaq istəyən, uşaq sahibi ola bilməyən və ya hamiləlik halında həyatı təhlükə altında olan şəxslər üçün nəzərdə tutulmuş bir seçimdir. Surroqat ananın seçilməsində vasitəçilik edən qurumun ixtisaslı, təcrübəli və etik olması ilə yanaşı, bu qurum tərəfindən təklif edilən surroqat ananın da fiziki, əqli, sosial, emosional və mənəvi ölçülərdə ümumi sağlamlığı yaxşı olmalıdır.

Bioloji sağlamlıq müayinələri aparılarkən surroqat ananın ümumi psixoloji sağlamlığının aşkarlanması və qiymətləndirilməsi hüquqi, tibbi və etik səbəblərə görə məcburidir. Psixoloji sağlamlıq və tarazlığı müəyyən etmək üçün müəyyən meyarlar var.

### Surroqat ananın hamiləlikdən əvvəl və sonra psixoterapiya alması məcburidirmi?

Surroqat ananın həyat yoldaşının və əgər varsa uşaqlarının da yaş və inkişaf xüsusiyyətləri nəzərə alınmaqla ailə terapiyasına cəlb edilməsinə ehtiyac ola bilər.

Həmçinin hamiləlik bitdikdən sonra körpədən fiziki və emosional olaraq ayrılacaq surroqat anada narahatlıq və daxili qarşıdurma görünə bilər.

Cərrah, mama-ginekoloq Ləman Əliyeva: "Daşıyıcı ana kənardan mayalandırıb və bətninə döl qoyulan şəxsdir. Azərbaycanda bu Surroqat analıq adlanır və ölkəmizdə bu prosedura icazə yoxdur. Lakin bu prosedurun qanuni edildiyi ölkələr var. Qiymətinə gəldikdə isə heç də ucuz deyil. Məndə olan məlumatlara görə 10 min civarındadır".

*Ayşən Vəli*

ARAŞDIRMA

# "İran dövlətinin birbaşa borcu və vəzifəsidir ki..."

"Tehrandakı Azərbaycan səfirliyinə qarşı edilən hücum sıradan bir hadisə deyil, bu, İran hakimiyyət strukturları tərəfindən tərtib edilmiş qanlı olaydır. İran bir dövlət kimi üzərinə düşən öhdəlikləri yerinə yetirə bilməyib, daha doğrusu yerinə yetirmək istəməyib. Əvvəla, Azərbaycan səfirliyinə qarşı hücumların olma ehtimalı yeksək idi, ikincisi bu barədə SEPAH-ın Qüds briqadasının polkovniki hələ 2-3 ay bundan qabaq separatçı telekanallardan birinə verdiyi açıqlamada Azərbaycan səfirliyinə və naxçıvanlı sürücülərə qarşı törədiləcək terror hadisələrinin anonsunu vermişdi. İran daha nələri deməli idi? Bu ölkə açıq şəkildə terroru təşkil edən, terrorçuları maliyyələşdirən və qanlı olayları tərtib edən bir dövlətdir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.




Deputat bildirib ki, İranın bu olaylarda etnik azərbaycan türklərindən istifadə etməsi də təhlükəlidir: "İranın daxilində vəziyyət çox gərgindir. Rejimin siyasətindən, sosial problemlərdən, etnik ayrı-seçkiliklərdən əziyyət çəkən insanlar halimiyyətə qarşı, onların irticaçı siyasətinə qarşı artın 4 aydan çoxdur ki, mübarizə aparırlar. Qrşıdurmalarda 500-dən artıq vətəndaş həyatını itirib, yaralalanların və həbs olunanların sayı on minlərlə ölçülür. Hər gün yeni şəhərlərdə etiraz aksiyası daha böyük kütlənin iştirakı ilə həyata keçirilir. Molla rejiminin də qarşılıq verməsi şiddətli şəkil almağa başlayır. Etirazlarda iştirak edən onlarla gənc edam edilib ki, bu da etirazları bir az da artırıb. Tehran rejimi diqqəti bu hadisələrdən yayındırmaq üçün daha çox səs-küy yaradacaq hadisələrin tərtibatı ilə məşğuldur. Azərbaycan səfirliyinə hücumu da bu sıraya daxil etmək olar. Digər tərəfdən Azərbaycan səfirliyinin hədəf seçilməsi İranın Azərbaycana münasibətinin, zor dilində danışmaq ritorikasının nəticəsi kimi də qəbul edilməlidir. Rəsmi Tehran diqqəti daxili problemlərdən xaricə daşımağa çalışır. Bu təcrübə İranda mollaların hakimiyyətə gəldiyi ilk gündə də tətbiq edilmişdi. Devrilmiş şaha sədaqətli olan generalları, yüksək rütbəli məmurları mollalarla bir araya gətirmək, birləşdirmək üçün İrakla 8 illik müharibəni başlatmaq rejimin özəl siyasi gedişlərindən biridir".

A.Hüseynov əlavə edib ki, bütün bunlara baxmayaraq İran öz məsuliyyətini ciddi şəkildə anlamalı və baş vermiş qanlı olaya görə üzərinə düşən vəzifələrini, öhdəliklərini icra etməli, ciddi addımlar atmalıdır: "İran Vyana Konvensiyasına imza atan ölkələrdəndir və Tehran həmin Konvensiyadan irəli gələn öhdəliklərini yerinə yetirməlidir. Bu, İran dövlətinin birbaşa borcu və vəzifəsidir. Ona görə də İran dövləti tez bir zamanda Səfirliyimizə qarşı törədilən qanlı olayın təşkilatçısı və ya təşkilatçılarını, sifarişçisi və ya sifarişçilərini aşkarlayıb, üzə çıxarmalı, günahkarları cəzalandırmalıdır. Əks təqdirdə iki ölkə arasında münasibətlərə şüurlu, həm də ciddi şəkildə ziyan vuracaq".

# MİSİR-AZƏRBAYCAN ƏLAQƏLƏRİ: münasibətlərin inkişafında yeni mərhələ

**Məlum olduğu kimi, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin yanvarın 28-də Azərbaycana səfəri əlamətdar hadisə olmaqla yanaşı, həm də qarşılıqlı əlaqələrin inkişafında yeni səhifənin açılmasına səbəb olub. Prezident İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə geniştərkibli görüşü zamanı bildirib ki, bu səfərə çox böyük əhəmiyyət veririk: "Əminəm ki, səfər Misir-Azərbaycan əlaqələrinin inkişafı üçün çox mühüm addım olacaqdır".**



"Biz indicə təkbətək görüşümüzdə bir çox məsələləri müzakirə etdik. Misir-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı bizim fikir ayrılığımız yoxdur",-deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bir çox sahələrdə əməkdaşlıq üçün çox gözəl imkanlar var: "Əminəm, əldə olunmuş razılaşmaları biz səfərdən sonra icra edəcəyik. Dünən Azərbaycan iş adamları ilə cənab Prezidentin görüşü olmuşdur. Məndə olan məlumata görə, görüşün çox gözəl nəticələri olmuşdur. Əlbəttə ki, biznes dairələrinin birgə fəaliyyəti bizim əlaqələrimizi daha da gücləndirəcək. Biz gələcək əməkdaşlıq sahələri də müəyyən etdik. Əminəm ki, həm qarşılıqlı sərmayə qoyuluşu, həm ticarət dövriyyəsinin artırılması yaxın gələcəkdə mümkün olacaq. Əlbəttə ki, siyasi əlaqələrimizin gücləndirilməsi məsələləri də diqqətdən yayınmadı. Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik. Əminəm ki, Prezident cənab Sisinin Azərbaycana səfəri ölkələrimizin gələcək uğurla inkişafına çox böyük töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz".

## PREZİDENT İLHAM ƏLİYEV: "Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafı üçün çox mühüm addım olacaq"

## ƏBDÜLFƏTTAH ƏS-SİSİN: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlar qazanıb"

### AZƏRBAYCAN-MİSİR MÜNASİBƏTLƏRİNİN YENİ PERSPEKTİVLƏRİ

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Misir 1991-ci il dekabrın 26-da ölkəmizin müstəqilliyini tanıyıb və 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb. Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir Prezidenti ilə görüşüb. Prezidentlərin bu görüşündə Azərbaycan-Misir münasibətlərinin yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində çox mühüm məsələlər müzakirə edilib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Misir Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ədalətli mövqeyini daim müdafiə edib. Ulu Öndər Heydər Əliyevin əlaqələri inkişaf etdirmək istiqamətində həyata keçirdiyi siyasətin nəticəsi olaraq 2005-ci il noyabrın 6-13-də Misirdə Azərbaycan və 2006-cı il noyabrın 20-28-də Azərbaycanda Misir mədəniyyət günləri keçirilib. Prezident İlham Əliyev 2007-ci il mayın 6-8-də Misirdə rəsmi səfərdə olub. Dövlətimizin başçısı səfər çərçivəsində Qahirədə Azərbaycan səfirliyinin yeni binasının açılış mərasimində iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyev mayın 7-də Misir Parlamenti tərəfindən medal ilə təltif olunub. Qızıldan hazırlanmış bu medal Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilir. Və bu gün Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfəri, aparılan danışıqlar, keçirilən müzakirələr və qarşılıqlı faydalı əməkdaşlıq haqqında sənədlərin imzalanması münasibətlərdə yeni inkişaf səhifəsinin açıldığını deməyə əsas verir.

### MİSİR LİDERİ: "AZƏRBAYCANA SƏFƏRİMDƏN SONRA MÜNASİBƏTLƏR DAHA DA DƏRİNLƏŞƏCƏK"

"Cənab Prezident, görüşümüz zamanı bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istər digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələrin tez bir zamanda daha da gücləndiriləcəyinə məndə əminlik yaradır". Bu barədə Misir dövlət başçısı Əbdülfəttah Əs-Sisi yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşdə bildirib. "Eyni zamanda, Azərbaycan xalqının Ümummilli Lideri, Misir xalqının yaxın dostu mərhum Prezident Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə də təbriklərimizi Sizə çatdırmağı şərəf bilirəm. Əlbəttə, ötən il keçirilmiş Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyanın iclasında da gözəl nəticələr əldə olunmuşdur. Amma hesab edirəm ki, bu səfərdən də sonra qarşılıqlı anlayış şəraitində ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafı qarşılıqlı istəklər və mövcud olan siyasi iradəyə əsaslanaraq daha da dərinləşəcək", - o qeyd edib.

### AZƏRBAYCAN PREZİDENTİ: "Beynəlxalq təşkilatlarda Misirlə birgə fəaliyyəti gücləndirəcəyik"

"Siyasi əlaqələrimizin gücləndirilməsi məsələləri də diqqətdən yayınmadı. Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizi gücləndirəcəyik və əməkdaşlığımızı dərinləşdirəcəyik",-deyən Prezident İlham Əliyev, həmçinin əmin olduğunu bildirib ki, Misir Prezidentinin Azərbaycana səfəri ölkələrimizin gələcəkdə uğurla inkişafına çox böyük töhfə verəcək. Prezident İlham Əliyev görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin böyük qələbə ilə başa çatdığını və Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq əbədi qalacağını söyləyib: "Qonağımı bizim bölgəmizdə gedən proseslər barədə məlumatlandırdım. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Artıq bu münaqişə həll olundu, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır və əbədi qalacaqdır". Dövlətimizin başçısı onu da vurğulayıb ki, artıq bu gün sülhə daha da yaxınlaşmışıq: "Biz işğala artıq son qoyaraq sülhə daha da yaxınlaşmışıq. Hələ ki, sülh əldə edilməyib. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsi artıq sülhün əldə edilməsinə gətirib çıxaracaq. Biz bəlli olan təklifləri irəli sürmüşük və bütün əzabəziyyətlərə, bütün dağıntılara baxmayaraq, yenə də hesab edirik ki, sülh müqaviləsi mütləq imzalanmalıdır. Əks təqdirdə, bizim bölgəmizdə təhlükələr daha da arta bilər".

Qeyd edək ki, yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olub. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misir Ərəb Respublikasının Su Ehtiyatları və Suvarma Nazirliyi arasında su ehtiyatlarının idarə edilməsi sahəsində əməkdaşlıq haqqında", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında" və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sonra Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.

## AZƏRBAYCAN PREZİDENTİ: "Misir-Azərbaycan əməkdaşlığının dərinləşdirilməsi üçün bütün imkanlar var"



Prezident Əbdülfəttah Əs-Sisinin səfəri Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 28-də Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə görüşdən sonra mətbuata bəyanatında deyib. Səfər çərçivəsində Misir Prezidenti ilə həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşlərdə bir çox məsələləri müzakirə etdiklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Gələcək əməkdaşlıq haqqında vahid mövqeyə gəldik - bu əməkdaşlıq dərinləşdirilməlidir və genişləndirilməlidir. Bunun üçün bütün imkanlar var və bugünkü səfər bunu bir daha təsdiqlədi". "Azərbaycan 30 ilə yaxın davam edən işğala hərbi-siyasi yollarla son qoydu, öz ərazi bütövlüyünü bərpa etdi, BMT-nin dörd qətnaməsini özü icra etdi. Halbuki bu qətnamələri BMT özü icra etməli idi". Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib. Dövlətimizin başçısı qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının islahatlarının labüdlüyü məhz buna əsaslanır. Çünki biz 30 ilə yaxın bu qətnamələrin icrasını gözləmişik, amma bunu görməmişik. Yəni, burada həm ikili standartlar hökm sürürdü, həm ayrı-seçkilik hökm sürürdü. Biz bu müharibəni apararaq işğala son qoyduq və ədaləti bərpa etdik. İndi isə azad edilmiş torpaqlarda qurub-yaradırıq və bütün dağıntıları görərkən bir daha görürük ki, biz Azərbaycanı və bölgəni hansı bəladan qurtardıq. Azərbaycan Prezidenti onu da bildirib ki, bu gün Misir yerləşdiyi bölgədə sabitləşdirici rol oynayır: "Prezident Əbdülfəttah Əs-Sisi tərəfindən aparılan islahatlar Misir dövlətinin imkanlarını böyük dərəcədə gücləndirə bilmişdir. Misir bu gün yerləşdiyi bölgədə sabitləşdirici rol oynayır". Əldə olunmuş nailiyyətlər münasibətilə Misir Prezidentini səmimiyyətlə təbrik edən dövlətimizin başçısı, həmçinin qeyd edib: "Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz".



## PREZİDENT İLHAM ƏLİYEV: "BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir"

Prezident İlham Əliyev mətbuata bəyanatında söyləyib ki, BMT ilə bağlı məsələlər artıq dünyada uzun illər müzakirə edilir, BMT-dəki islahatlar haqqında fikir mübadiləsi aparılır: "Mən çıxışlarımın birində bildirmişdim ki, bu islahatlara böyük ehtiyac var. Hesab edirəm ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir". Dövlətimizin başçısı deyib ki, burada bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir. İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Bunun ədalətli olacağını hesab etdiyini vurğulayan Azərbaycan Prezidenti bildirib: "Çünki İkinci Dünya müharibəsindən artıq 80 ilə yaxın vaxt keçir, dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. Ona görə, hesab edirəm ki, bu islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına xidmət göstərəcək". "Biz bu gün regional təhlükəsizlik məsələlərini müzakirə etdik, eyni zamanda, gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək üçün fikir mübadiləsi apardıq. Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizəmizi gücləndirmək qərarına gəldik, buna böyük ehtiyac var". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə mətbuata bəyanatında söyləyib. Dövlətimizin başçısı deyib ki, çünki beynəlxalq terrorçuluq bütün dünya üçün böyük təhdiddir və bu təhlükəyə qarşı ancaq səylərin birləşdirilməsi nəticəsində uğurla mübarizə aparmaq mümkün olacaq.

## ƏBDÜLFƏTTAH ƏS-SİSİ: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlar qazanıb"

"Diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycana gələn ilk Misir Prezidenti olmaqdan şərəf duyuram". Bu sözləri Misir Prezidenti Əbdülfəttah Əs-Sisi Azərbaycan və Misir arasında sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında səsləndirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük uğurları xüsusi qeyd edən Misir Prezidenti deyib: "Azərbaycan xalqının və hökumətinin səyləri nəticəsində yaradılmış bu gözəllikləri görmək bizi çox valeh etdi. Sizin ölkənizə davamlı inkişaf və tərəqqi arzu edirəm". Əbdülfəttah Əs-Sisi səmimi qəbula və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Misir Prezidenti onu da vurğulayıb ki, danışıqlarımız çox gözəl və müsbət mühitdə keçib və ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı səylərimizi daha da gücləndiriləcək. Müzakirələr zamanı Misir və Azərbaycan arasında ticarət dövriyyəsinin artırılmasına dair razılıq əldə olunduğunu qeyd edən Prezident Əbdülfəttah Əs-Sisi deyib ki, bütün bunlar mövcud siyasi iradənin fonunda əlçatandır və inkişaf etdirilməsi mümkündür. Əbdülfəttah Əs-Sisi Misirin əczaçılıq infrastrukturundan Azərbaycanın dərman ehtiyaclarının ödənilməsi üçün istifadə edilməsinə hazır olduqlarını bildirib. Misir lideri qeyd edib ki, iki ölkə arasında həm də azad ticarətlə bağlı sazişlər vacib əhəmiyyət kəsb edir: "Bakıda keçirdiyimiz görüşlərdə Misirin xarici investorlar qarşısında mövcud maneələrin aradan qaldırılması, onlar üçün şəraitin yaradılması və hüquqi prosedurların daha da asanlaşdırılması istiqamətində görülən tədbirlər barədə danışdıq". "Misirin Afrika qitəsinə qapı rolunu oynadığını nəzərə alaraq, ölkələrimiz arasında azad ticarət sahəsində imzalanmış sazişlərin vacib əhəmiyyət kəsb etdiyini vurğuladıq. Eyni zamanda, Bakı ilə Şarm-əl-Şeyx arasında birbaşa hava əlaqəsinin olmasını xüsusi qeyd edərək, iki ölkə arasında birbaşa reyslərin sayının çoxaldılmasının vacibliyini, bunun iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımıza töhfə verəcəyini bildirdim", - deyə Prezident Əbdülfəttah Əs-Sisi vurğulayıb.

O qeyd edib ki, Misir Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında da əlaqələrin inkişafını dəstəkləyir və bundan sonra da dəstəkləyəcək. Prezident İlham Əliyevin yanvarın 28-də Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini əlamətdar hadisə olmaqla yanaşı, həm də qarşılıqlı əlaqələrin inkişafında yeni səhifənin açılmasına səbəb olduğunu, prezidentlərin şəxsi münasibəti, imzalanmış sənədlərin əhatəsi, iki ölkə arasında imzalanan sənədlər, həmçinin, Azərbaycanla Misir arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə mətbuata Bəyannamələri iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi və inkişafı istiqamətində atılan növbəti addımlardandır. Həmçinin, Misir Prezidentinin Azərbaycana səfəri, həmçinin ölkəmizin Şərq regionunda strateji əhəmiyyətini bir daha təsdiqləmiş oldu. Eyni zamanda, bu səfər Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinə də əlavə divident gətirdi. Dövlət başçımızın mətbuata bəyanatında söylədiyi kimi: "Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz".

**RƏFİQƏ KAMALQIZI**

TƏHLİL + ANALİTİK

# Arazı... zülm ilə ayırdılar

**"Arazı ayırdılar, lil ilə doyurdular"... Şair siyasi bir mənzərəni necə də ustalıqla ədəbi dilə çevirib. Bəli, Arazı ayırdılar, lil ilə doyurdular. Arazın suyunu elə bulandırdılar ki, illərdir, o su durulmur, yəni o taylı-bu taylı azərbaycanlıların hicranı bitmir, vusalı yetişmir.**

Bəli, "Mən səndən ayrılmazdım, zülm ilə ayırdılar", bu zülmlər tarixdən bizə çox gözəl məlumdur. Kim bir-birindən ayrılardı ki? Hansı qardaş bacısından, hansı ata oğlundan, hansı ana balasından, hansı əmioğlu əmiuşağından ayrılardı ki Amma zülm ilə ayırdılar. Tarixin torpaq acları, ərazi iddiasında olanları, sahiblənmək iqtidarı ilə yaşayanları, hökmranlıq üçün yarananları zülm ilə ayırdılar bir xalqı. Qədimdən qədim tarixi, mədəniyyəti, adət-ənənələri olan xalqı. Elə ayırdılar ki, bir hissəsi qaldı o tayda-İran zülmündə, bir hissəsi də qaldı bu tayda-rus əsarətində

## Günahkar Araz oldu

Günahı da atdılar Arazın üstünə. Ta bilmədilər ki, elə hamıdan çox Arazın bağrı yaralıdır. Səhər açılar, axşama dönər. Gecə yuxulayar, mürgü döyər. Lakin Araz illərdir ki, nə yatar, nə də dincələr. Qış olar, suları yara kimi üstdən qaysaq bağlayar, lakin bu





qaysağın altından bir həzin laylay çalar Araz. Bahar gələr, o tayın da, bu tayın da dağının-düzünün qarını, buzunu əridib Araza tökər, sel gələr Araza. Deməli, Arazın dərdi artar, o tayın-bu tayın dərdini ağlayar.

Bax, belə-belə Arazı qınadıq, üstünə getdik. "Araz, olmasaydın, aramıza ayrılıq da düşməyəcəkdi",- dedik. İllərdir ki, Arazı o qədər danladıq-dansadıq ki, o ta heç göz yaşını qurutmur. Həzin-həzin, ahəstə-ahəstə həm öz dərdinə, həm də o tayının-bu tayının hicranlı insanlarına ağlayır. Araz o tayla bu tayın bir-birindən ayrı düşən torpaqlarına, yurdlarına, insanlarına ağlayır. Araz qardaşı o tayda, bacısı bu tayda qalan soydaşlarımıza ağlayır. Araz baba-nənəsi o tayda, nəvə-nəticəsi bu tayda qalanlara ağlayır. Araz bir-birindən uzaq düşən minlərlə, milyonlarla qohum-əqrəbanın bir-birinə həsrətinə ağlayır

## O taylı-bu taylı müstəqillik mücadiləsi

Böyük, həm də yeraltı və yerüstü sərvətlərlə zəngin olan Azərbaycan üçün vaxtilə böyük mübarizələr getdi. Rusiya bir tərəfdən, İran bir tərəfdən canımız, göz bəbəyimiz Azərbaycanı hərəsi öz səmtinə çəkməyə, onu parçalamağa, bu parçalardan pay götürməyə canla-başla, böyük səylə çalışdılar. Kimə nə qədər düşər mübarizəsi getdi. Kimin ən böyük parçaya sahib olacağı iddiası atıldı ortaya. Sahibi, yiyəsi, tarixi soydaşları bir kənarda qalmışdı, kənardakılar bu dövlətin yeni sahiblərinə çevrilmək istəyinə qalxmışdılar.

1918-ci ildə bu tayda gedən azadlıq, demokratik cümhuriyyət uğrunda ölüm-qalım savaşı o tayda da eynilə başlamışdı. Baxmayaraq ki, vaxtilə Gülüstanda və Türmənçayda Azərbaycan bölüşdürülmüşdü, lakin bu xalqın şimallı-cənublu ürəkləri azadlıq eşqi ilə çırpınan insanları ayağa qalxmışdılar. Onlar o tayda, bizsə bu tayda müstəqil dövlət yaratmaq istəyirdik. Yarada bilərdiksə, kim onun bir gün birləşməsini düşünə bilməzdi ki?..

1918-ci ildə Şimalı Azərbaycanda, yeni bu tayda müstəqillik uğrunda gedən mübarizələr hər kəsə bəllidir. Bunun üçün nə qanlar axıdıldı, nə insanlar bu mübarizənin qurbanına çevrildi. Nə insanlar bu mübarizənin şirin dadını dadmamış dünyadan köçdülər.

Həmin dövrdə İranda da azərbaycanlılar müstəqil dövlət qurmaq uğrunda mübarizəyə qalxmışdılar. Cənubda milli azadlıq hərəkatı getdikcə daha ardıcıl xarakter alırdı.

1920-ci il aprelin 7-də Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə Təbrizdə silahlı üsyan başlanır. Bütün Təbriz əhalisi üsyançıların müdafiəsinə qalxır. Üsyanı yatırtmaq üçün mərkəzdən göndərilmiş polis dəstələri buna cəsarət göstərməyərək şəhəri tərk edirlər. Xalqın misli görünməmiş fəallığı nəticəsində 1920-ci ilin 7 aprel üsyanı qan tökülmədən qalib gəlir. Üsyanın qalib gəldiyi 7 Aprel günü xalq qarşısında çıxış edən Şeyx Məhəmməd Xiyabani həmin gündən etibarən Azərbaycanın adının dəyişdirilərək "Azadıstan" ("Azadlıq ölkəsi") adlandırılacağını bəyan edir.

Milli Hökumət bütün İranın demokratikləşdirilməsi və ölkədə konstitusiyalı quruluş yaradılması, daxili irticaya və ingilis ağalığına son qoyulması uğrunda mübarizə xəttini davam etdirir, Cənubi Azərbaycana qarşı yeridilən ayrı-seçkilik siyasətinə qarşı çıxış edirdi.

Xiyabanı azadlığın, müstəqil yaşamağın məramını belə izah edirdi: "Mənliyini sevmək təbii və ümumi bir qanundur. Hər bir adam, hər bir canlı bəşər özünü başqasından çox sevər. Buna görə də bir cəmiyyət öz rifah halını yaxşılaşdırmağı başqasından gözləməməlidir. Xüsusilə özünə nisbətən rabitə və yaxınlığı olmayanlardan yardım və xidmət gözləmək yersizdir. Öz şəxsiyyətinə hörmət etmək, ona inanmaq da mənliyini sevməklə bir sırada qoyulmalıdır. Bir xalq, bir cəmiyyət təkəbbürlü və özünə bədgüman olmamalıdır. İnsan öz şəxsi etimadının əsasını laxladan alçaqlığı, acizlik qədər təvazökarlığı qəbul etməməlidir. Bəşəriyyət bütün üzvlərinin birlikdə olan fəaliyyət və yardımına möhtacdır. Elə təsəvvür etməməlidir ki, dünyada yaşayan kiçik bir xalq bəşəriyyətə xeyir verə bilməz və onun varlığına etinasız münasibət bəsləmək olar. Çox təəssüf olsun ki, biz öz qədir və qiymətimizi çox az bilmiş, bəlkə də özümüzdə olan mənlikdən xəbər tutmamışıq. Bu, fərdlərin həyatında təcrübədən keçirilmişdir. Yüksək xüsusiyyətə malik olan, ali fikirlərə xidmət edən, öz dərəcə və heysiyyətini qiymətləndirən və bunun qorunması üçün çalışan şəxslər həmişə yüksək məqama çatmışlar. Məhz buna görədir ki, bir çox ədib və filosoflar öz şəxsiyyətləri naminə ali dərəcəyə çatmış və padşahları belə öz zəhmət və qüdrətinə qarşı hörmət etməyə məcbur etmişlər. Onlar saraylarda ən parlaq yer tutmuşlar. Xalqlar dəxi bu əzəməti, mənəvi qüvvəni, mənliyi və öz varlığına etimadı üzə çıxarmaqla tərəqqi və inkişafa nail ola bilərlər. Azad və müstəqil olmaq istəyən bir xalq, öz həyatına və ictimai məsələlərə laqeyd qala bilməz. Biz dəxi mütərəqqi xalqlar cərgəsinə çatmaq üçün öz fikir və hissiyyatımızı onların dərəcəsinə qaldırmalıyıq.

Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir".

Ardı Səh. 11

# Arazı...
## zülm ilə ayırdılar

Əvvəli Səh.10

Amma nə fayda Şimali Azərbaycanda olduğu kimi, Cənubda da bu müstəqilliyin davam etdirilməsinə dözməyənlər onu əlimizdən aldılar. Həm də o tayda da, bu tayda da müstəqilliyə əngəl törədənlər arasında saysız ermənilər olduğu sübut olundu. Deməli, elə o vaxtlardan ermənilər həm fars, həm də rus rejimi tərəfindən hər hansı bir fitnə-fəsadın həyata keçirilməsi üçün əllərdə saxlanılırdı. Bunun da hər zaman şahidi olmuşuq.

Beləliklə 1990-ci ildə həm şimalda, həm də cənubda azdlıq hərəkatı boğuldu. Xalqın böyük iradəsinə, əzminə, qısa zaman fasiləsində əldə etdiklərinə baxmayaraq müstəqilliyi əlindən alındı. O taya İran, bu taya isə Rusiya sahibləndi. Yenə də vurğulamaq istəyirdik ki, bəlkə də o mübarizələrin sonunda bir birləşmə ola bilərdi. Lakin imkan vermədilər. Birləşmək arzumuz yenə ürəyimizdə qaldı. Günahı da atdıq Arazın üstünə. Nədir günahı görəsən Arazın?






### 30 milyon o tayda, 10 milyon bu tayda

Bəli, Azərbaycanın şimalı 70 il sovet imperiyasının buxovlarında inləməli oldu. 70 il başımızın ağasına çevrilənlər əsl arzularına çatdılar. Bu ölkənin bütün sərvətlərini mənimsədilər. Bu ölkənin hesabına İkinci Cahan Müharibəsinin qalibi oldular. Bu ölkənin sərvətləri hesabına bütün şəhər və kəndlərini abadlaşdırdılar. Azərbaycanın zəhmətkeş insanlarının 70 ildə əməyi mənimsənildi. Bütün əldə olunanlar Rusiyaya axdı. Rus dili ölkəmizdə hömranlıq etdi. Məkrtəblərimizə, evlərimizə ayaq açdı. O qədər ayaq açdı ki, bir də baxdıq ki, rus dilində daha çox danışırıq. Rus mədəniyyəti, rus ədəbiyyatı öyrədildi bizə. Böyük imperiyanın 15 müstəmləkəsindən biri olduq.

Əvəzində isə inkişafdan qalmış bir ölkənin sakinlərinə çevrildik. O zamana qədər ki, Ulu Öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldi və Rusiya ilə fərqli bir şəkildə danışmaqla ölkəmizin bütün sahələrdə inkişafına nail oldu.

Lakin həmin 70 il ürəyimizdən müstəqil olmaq arzusunu bir an belə olsa, silə bilmədi. Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycanda rəhbərliyi dövründə xalqın bu rəhbərlikdən aldığı əzmlə azadlıq duyğuları yenidən alovlandı. Qarşıdakı illərdə xalqın bu duyğularla ayağa qalxması, müstəqilliyinin bərpası uğrunda mübarizə aparması da həmin illərin bəhrəsi idi. Biz müstəqil olduq, bəli. Ayağa qalxdıq, qan tökdük, şəhid verdik, qazi qazandıq, torpaq itirdik, faciələr, deportasiya və soyqırımlar yaşadıq, lakin müstəqilliyimizi bərpa edə bildik.

İranda da molla rejimi insanların qənimine çevrildi. Azadlıq sözünü ağzından çıxaran kəs dar ağacının növbəti qurbanı oldu. Molla rejimi insanları əsarətdə saxlamaq üçün elə qanunlar tətbiq etdi ki, həmin qanunları azacıq pozanlar özlərini həbsxanalarda gördülər. Qadınlara zorla bürünmək, yalnız gözlərinin görünməsi tapşırıldı. Azacıq saçı görünən, çadrası qaydasında olmayan minlərlə qadın rejimin qurbanı oldu.

Cənubda yaşayan azərbaycanlılarla farslar arasında daim ayrı-seçkilik hökm sürdü. Bu, indi də davam etməkdədir. İranda Azərbaycan dilində məktəblərin, mədəniyyət mərkəzlərinin, ədəbiyyatların olmaması, bütün sahələrdə azərbaycanlıların hüquqlarının tapdalanması, az əməkhaqqı ilə ağır işlərə cəlb olunması, bütün bunlar dediklərimizi sübut edən məqamlardır.

Böyük ümidlə deyə bilərik ki, cənubda yaşayan azərbaycanlılar bir gün yenə öz müstəqilliklərinə qovuşacaq, azad olacaqlar. Bütün hüquqlarının, istəklərinin sahibi olacaq, öz dillərində təhsil alıb, təhsilli azərbaycanlı övladları böyüdəcəklər. O gün uzaqda deyil!





### Molla rejimi və 8 noyabr Zəfəri

Molla rejiminin bilavasitə silahlandırdığı, arxasında durduğu ermənilərin də farslar kimi gözləri həmişə Azərbaycan torpaqlarında olub. 1990-cı illərdə torpaqlarımızın 20 faizdən artıq hissənin qonşuluqdan kənar olmuş ermənilər tərəfindən işğalı onların havadarlarının hesabına oldu. Yoxsa Ermənistan təklikdə hansı gücə sahibdir ki?..

Azərbaycan 30 illik mübarizədən sonar 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarını qarış-qarış erməni qəsbindən azad etdi. Bunu üçün Birinci Vətən Müharibəsində olduğu kimi, minlərlə şəhid verdi, qazi qazandı. Lakin Zəfər bayrağını Qarabağda dalğalandıra bildi.

Təəssüf ki, bu Zəfəri qonşu İranda bərqərar olan molla rejimi hələ də həzm edə bilməməkdədir. Müharibədən sonar erməniləri dəstəkləmələri, qızışdırmaları, onları yenə də silah və ərzaqla təmin etmələri dediklərimizə sübutdur. Elə başıboş ermənilərin 10 noyabr Bəyannaməsində üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsinə də əngəl törədən molla rejimidir.

Sual olunur, molla rejimi nə üçün Azərbaycanın qələbəsini qəbul edə, Zəngəzur dəhlizinin açılmasına razı ola bilmir? Düşünürəm ki, bunun izahı hər kəs üçün açıq şəkildə məlumdur. Özlərini müsəlman kimi təqdim edən, lakin Azərbaycan torpaqlarında məscidlərə müsəlman aləminə zidd heyvanları bağlayan qonşusu ilə İran bu gün belə isti münasibətdədirsə, deməli, onu narahat edən dinindən də önəmli məsələdir.

Lakin çox təəssüf ki, regionda belə qarşıdurma yaradan, ara qızışdıran, region dövlətlərinin sakitlik, rifah şəraitində yaşamasına əngəl törədənlər var. Belə götürəndə bu rejim öz ölkəsinin vətəndaşına münasibətdə hansı mövqedədir ki, onda başqa ölkələrin vətəndaşlarına ürəkyanarlığı da axtaraq. Ötən ilin sentyabr ayında gənc bir qızı çadrasından saçının az bir hissəsinin görünməsinə görə edam etmədilərmi? Artıq aylardır ki, insanlar bu rejimin ədalətsizliyinə qarşı etiraz mitinqləri keçirir. Artıq həmin mitinqlər milli azadlıq hərəkatına çevrilib. Çox güman ki, molla rejiminin ömrünə az bir vaxt qalıb.

Təəssüfedici başqa bir hal ondan ibarətdir ki, bu günlərdə Tehranda Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə silahlı basqın edildi. Səfirlik əməkdaşlarının birinin şəhid olması, digər iki nəfərin isə yaralanması bu ölkədə təhlükəsizlik anlayışının olmadığını gündəmə gətirdi. Bu ağır cinayət hadisəsində süddən ağ qaşıq kimi çıxmaq istəyən molla rejiminin isə min bir bəhanəsi əsla qəbiledilməzdir. Çünki bu, əvvəlcədən planlaşdırılmış cinayət idi. Bağışlanmaz cinayət.

Ötən həftənin şənbə günündə İranın azərbaycanlılar yaşayan ərazisində, əsasən Xoy şəhərində zəlzələnin baş verməsi, insan itkisinin və dağıntıların olmasına baxmayaraq molla rejiminin həmin insanlara heç bir yardım göstərməməsi də artıq aydın məsələdir. Buradan belə bir nəticəyə gəlmək olur ki, rejim azsərbaycanlılara qarşı münasibətdə heç də müsbət tərəfdə deyil.

Lakin biz azərbaycanlıların belə bir atalar misalı var: sən saydığını say, gör, fələk nə sayır. Yəqin ki, aydındır. Bəli, Arazı belə ayırdılar, lil ilə doyurdular. Biz bir-birimizdən ayrılmazdıq, beləcə zülm ilə ayırdılar. Bu, bir tarixdir. Kimlərin saxtalaşdırmasından, gizlətməsindən, hansı şəkildə təqdim etməsindən asılı olmayaraq, tarixdir, yaşanan tarix...

***Mətanət Məmmədova***

# İranda törədilən qanlı terror: dünya ictimaiyyəti susmur









Çox təəssüfləndirici haldır ki, dünyanın inkişaf etmiş bir dövründə terrorizmin acı nəticələrini yaşayırıq. Müasir dünyanın toqquşduğu təhlükəli problemlərdən biri olan terror siyasi, iqtisadi, mənəvi-psixoloji gərginlik yaratmaqla yanaşı, dinc insanların qanının axmasına da səbəb olur. Sülh və təhlükəsizliyin qarantına çevrilən Azərbaycan bu gün bəşər sivilizasiyasına öz töhfəsini verdiyi bir zamanda terror aktları ilə qarşılaşır. Yanvarın 27-də səhər saatlarında ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum edilməsi əlbəttə ki, vəhşiliyinin nümunəsidir. Əlbəttə ki, səfirliklər hər bir dövlətin daxilində digər bir ölkəni təmsil edir və təhlükəsizliyindən yerləşdiyi ölkənin hüquq-mühafizə qüvvələri cavabdehlik daşıyırlar.

## 90 TERROR AKTI VƏ ŞƏHİD OLAN 41 TÜRK DİPLOMATI

Xatırladaq ki, Azərbaycan, türk diplomatları zaman-zaman bu terror aktları ilə rastlaşıblar. Təkcə 1973-1984-cü illərdə xarici ölkələrdə fəaliyyət göstərən türk diplomatları və ailələri erməni terror təşkilatları tərəfindən genişmiqyaslı hücumlara məruz qalıblar. Məqsədli və amansızcasına törədilən 90 terror aktı nəticəsində 41 türk diplomat və ailə üzvü şəhid olub. Türkiyə diplomatiyası XX əsrin sonunda ən çox sayda və ağır nəticələr verər terror aktları ilə üz-üzə qalıb. Təəssüf ki, türk diplomatlarına qarşı bu bəşəri cinayətləri törədən erməni terrorçuların əksəriyyəti sonralar müxtəlif bəhanələrlə həbsdən azad ediliblər. Daha bir təəssüfləndirici məqam isə Ermənistanın həmin terrorçuları qəhrəmanlaşdıraraq terrora dəstək verməkdə davam etməsidir.

Bəzi mütəxəssislər terroru yeni bir siyasi sistemin qurulmasına dəstək olmaq üçün inqilabi hərəkatlara fokuslanan təhlükəli bir fəaliyyət növü kimi təqdim edirlər. Mənbələrdə göstərilir ki, İsrail tədqiqatçısı Natenyahu da qəsdən və sistematik şəkildə günahsız insanları öldürmək, xəsarət yetirmək və hədələməklə terrorun dünyadakı ən qorxunc insan fəaliyyəti olduğunu vurğulayır.

## SƏFİRLİYİN ƏMƏKDAŞLARININ TƏHLÜKƏSİZLİYİ İRAN DÖVLƏTİNİN ÜZƏRİNƏ DÜŞƏN MƏSULİYYƏTDİR

Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən silahlı hücum Azərbaycan ictimaiyyəti tərəfindən kəskin hiddətlə qarşılanıb. Bu hücum beynəlxalq hüququn bütün normalarının kobud şəkildə pozulması deməkdir. Belə ki, 1961-ci il aprelin 18-də qəbul olunmuş diplomatik əlaqələr haqqında Vyana Konvensiyasında müəyyən edilmiş müddəalara əsasən, Azərbaycan Respublikasının səfirliyinin binasının və akkreditə olmuş əməkdaşlarının təhlükəsizliyini təmin etmək məhz İran dövlətinin də üzərinə düşən öhdəlikdir. Bu hadisə bir daha İranın terroru dəstəklədiyini nümayiş etdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tviterdə paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıb. Paylaşımda deyilir: ”Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!” Dövlət başçımız bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu bu gün sivil bir dünyada yaşadığımız zamanda heç bir məntiqə sığmır.

## ”AZƏRBAYCANIN TEHRANDAKI SƏFİRLİYİNƏ QARŞI TÖRƏDİLƏN, MÜHAFİZƏ XİDMƏTİNİN RƏİSİNİN ŞƏHİD OLDUĞU MƏNFUR HÜCUMU KƏSKİN ŞƏKİLDƏ QINAYIRAM”

Azərbaycana dost və yaxın ölkələr bu hadisəyə biganə qalmayaraq, terror aktını pisləyiblər. ”Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən, mühafizə xidmətinin rəisinin şəhid olduğu mənfur hücumu kəskin şəkildə qınayıram”. Bu ifadə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sosial şəbəkə hesabında paylaşımında öz əksini tapıb. 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olan qardaş Türkiyə bu gün də Azərbaycan yanındadır və ona mənəvi dəstəyini əsirgəmir. Türkiyə dövlətinin başçısı yazır: ”Azərbaycanlı qardaşlarımıza başsağlığı verir, yaralılarımıza şəfa diləyirəm. Türkiyə can dostu qardaş Azərbaycanın yanındadır”.

Azərbaycana qardaş dövlət olan Türkiyə ictimaiyyəti törədilən ağır və qanlı terror aktına qarşı etirazı davam etməkdədir.

Ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları yaydıqları bəyanatlarda insanlıq əleyhinə olan bu qanlı cinayətin baş verməsinə şərait yaradanlar, təşkil edənlər və törədənlər lənətlənir. Ölkənin aparıcı kütləvi informasiya vasitələrində Azərbaycana qarşı törədilən bu terror aktının səbəb və məqsədlərindən bəhs edən çoxsaylı məlumatlar yayılıb.

Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Ölkə prezidentlərinin 2021-ci il iyunun 15-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada dostluq və qardaşlığımızı gücləndirəcək, əlaqələrin daha da inkişafına səbəb olacaq Şuşa Bəyannaməsini imzaladılar. Bu Bəyannamə müttəfiqlik münasibətlərinin gündən-günə genişlənməsində əhəmiyyətli bir sənəddir. Bu gün Türkiyə-Azərbaycan əlaqələri yalnız iki ölkəyə deyil, bölgədə sülh və sabitliyə xidmət etməkdədir. Azərbaycan-Türkiyə münasibətləri Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, dünyada bənzəri olmayan qarşılıqlı etibara və etimada əsaslanır.



SWI swissinfo.ch Iniciar sesión Menú

Al menos un muerto en un ataque a la embajada azerbaiyana en Irán, según Bakú

27 enero 2023 - 07:36

Bakú, 27 ene (EFE).- Al menos una persona murió hoy y otras dos resultaron heridas en un ataque armado contra la embajada de Azerbaiyán en Irán, denunció el Ministerio de Asuntos Exteriores azerbaiyano.

"El atacante disparó con un fusil Kaláshnikov contra el puesto de guarda y mató al jefe del servicio de seguridad. También resultaron heridos dos guardias cuando repelían el ataque", señaló Exteriores en un comunicado.



infobae

AGENCIAS

Bakú responsabiliza a Irán del atentado y anuncia que evacua la embajada

Por Newsroom Infobae
27 de Enero de 2023

Bakú, 27 ene. El ministerio de Exteriores de Azerbaiyán responsabilizó hoy a Teherán del ataque contra su embajada en Irán y anunció la evacuación de empleados de la legación.

"Condenamos decididamente este artero atentado terrorista contra la embajada de Azerbaiyán en Irán", declaró Exteriores en un comunicado, en el que anunció que "se prevén las correspondientes medidas para la evacuación de los empleados de la embajada azerbaiyana y los miembros de sus familias". EFE

## DİPLOMATİK VƏ YA KONSULLUQ NÜMAYƏNDƏLİYİNİN BİNALARI TOXUNULMAZDIR

Azərbaycanın İrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən qınanmışdır. Eyni zamanda, 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən bu silahlı hücum terror aktı kimi pislənmişdir. Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsinin sözçüsü Peter Stano tviter sosial şəbəkəsində diplomatik nümayəndəliklərə hücumların qəbuledilməz olduğunu qeyd edib. O, silahlı hücum zamanı həlak olan mühafizə xidmətinin rəisinin ailəsinə başsağlığı verib, yaralıların tezliklə sağalmasını arzulayıb və əhatəli istintaqın aparılacağına, cinayətkarın məsuliyyətə cəlb olunacağına ümid etdiyini bildirib.

Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu BMT-nin 77-ci Baş Assambleyasının prezidenti Çaba Koroşi tərəfindən də pislənib. Bunu BMT-nin mətbuat katibi Stefan Düjjarik gündəlik brifinqdə jurnalistin sualını cavablandırarkən bildirib. ”Mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, yaralananlara tezliklə şəfa diləyirik”, - deyə BMT nümayəndəsi qeyd edib. BMT-nin mətbuat katibi vurğulayıb ki, beynəlxalq hüquq diplomatik missiyalara hücum etməyi qəti şəkildə qadağan edir. O, xüsusilə, diplomatik və ya konsulluq nümayəndəliyinin binalarının toxunulmazlığı prinsipini xatırladıb.

Stefan Düjjarik, həmçinin xatırladıb ki, 1961-ci il tarixli Diplomatik əlaqələr haqqında Konvensiya və 1963-cü il tarixli Konsulluq əlaqələri haqqında Konvensiya diplomatik və ya konsulluq nümayəndəliyini hər hansı bir müdaxilə və ya zədədən qorumaq üçün, eləcə də bu missiyalarda sakitçiliyin hər hansı pozulması və ya heyətin ləyaqətinə toxunulmasının qarşısını almaq üçün qəbul edən ölkənin hökumətinin üzərinə lazımi addımlar atmağı öhdəliyi qoyur.

## DÜNYA MƏTBUATI TERRORA BİGANƏ DEYİL

Cənubi Koreyanın kütləvi informasiya vasitələri də hadisəyə biganə qalmayaraq, Azərbaycanın Tehrandakı səfirliyinə silahlı şəxsin hücumu nəticəsində mühafizə xidməti rəhbərinin öldürüldüyü, digər iki əməkdaşın isə yaralandığı, bununla əlaqədar, Azərbaycan hökumətinin İrandakı səfirliyi təxliyə etdiyi bildirilib. Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatlarına istinad edən Cənubi Koreya mediası qeyd edir ki, səfirliyə ola biləcək təhdidlərin qarşısının alınması məqsədilə Azərbaycan tərəfi indiyədək dəfələrlə İranın aidiyyəti qurumlarına müraciət etməsinə baxmayaraq, bu müraciətlərin İran tərəfindən ciddi qarşılanmadığı və nəticə etibarilə Azərbaycan səfirliyinə sözügedən qanlı terror hücumu baş verib.

Məlumatlarda, həmçinin Azərbaycan və İranın qonşu ölkələr olduğu, 2022-ci ilin oktyabrında İranın ”güc nümayişi” məqsədilə Azərbaycan ilə sərhədə yaxın ərazilərdə hərbi təlimlər keçirdiyi diqqətə çatdırılır.

Müasir dövrün ən təhlükəli təzahürlərdən biri olan terrorizmin acı nəticələrini hələ də yaşamaqdayıq. Azərbaycan qonşu ölkədən öz şəhidini qarşıladı. Vətən sağ olsun!, - dedik. Şəhidimiz Orxan Əsgərov və digər əməkdaşlar terror aktının daha ağır nəticələr verməsinin qarşısını aldılar. Yaralananların hər biri 4-5 saat əməliyyat olunublar. Onlar qəhrəmanlıq göstərdilər, Azərbaycan Respublikasının suverenliyi və müstəqilliyi uğrunda öz canlarından keçdilər, xəsarət aldılar.

İnsan tələfatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Müasir dünyanın gözü qarşısında baş verən bu hadisə qətiyyətlə pislənilir və cinayətkarlar tezliklə tapılaraq layiq olduqları cəzanı alacaqlar.

İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri baş verib. Hüquqi və demokratik dövlət olan Azərbaycan tərəfi günahkarların layiqli cəza almasını təmin etmək üçün müvafiq beynəlxalq mexanizmlərin verdiyi bütün imkanlardan istifadə edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏRS BAXIŞ+ÖZƏL




# Fars şovinisti + millət xainləri =

# RİYAKARLIQ!

**Tehran "respublikasının" müxtəlif səlahiyyətli vəzifələrində oturub anti-Azərbaycan xarakterli bəyanatlar səsləndirən və bu kimi bəyanatlar müqabilində "ələkçiyə qıl verən" millət xainləri baş verən son hadisələrdən nəticə çıxarmaları yerinə daha da azğınlaşmaqda, hətta zaman-zaman ağızları heliklənmiş şəkildə lap güclü səslə hürməyə davam edirlər.**

"Bakı İranın oğul övladıdır". Belə bir axmaq düşüncə ilə özünün tvitter səhifəsində "İran" adlanan məmləkətin Araz, Həndab və Kamican şəhərlərinin parlamentdəki təmsilçisi, parlamentin daxili məsələlər üzrə komissiyasının sədri, Həsən Əsafari adı fars şovinisti paylaşım edib. O, sözügedən tvitində Azərbaycanı "Bakı" adlandırıb və "Bakı İranın övladıdır" tipli sərsəm ifadəsi ilə bir az da irəliyə getməklə, sanki "ağıllı" bir çağırış edib, Azərbaycanı "İŞİD və sionistlərin İrana qarşı hazırlanmış" oyundan" imtina etməyə "çağırıb" (?!) Və Əsəfari bu da azmış kimi, öz sərsəmliyini davam etdirərək bir insanın ölümünün terror aktı olmadığını (?!) iddia edib. İndi isə həmin şovinistin son cümləsinə diqqət edək: "Elə danışın ki, sonra utanmayasınız" (???!!!) Özünün hansı cəfəngiyyatlar söyləməsinə rəğmən həyasızcasına ittihamlar irəli sürən, bir Azərbaycan vətəndaşının qətlinin terror olmadığını dilinə gətirən bir GƏDADAN, əslində, başqa cür düşüncə gözləməyə də dəyməzdi!

Faktiki olaraq Azərbaycanın diplomatik binasına hücum edilib, həmin hücum dünya tərəfindən terror aktı kimi qiymətləndirilib, bu fars şovinisti isə baş verənlərdən təəssüf hissi keçirdiyini dilinə gətirməsi yerinə özünü ortaya yuyulmamış qaşıq kimi atmaqla təmsil olunduğu "respublikanın" real siması(ZLIQ)nı tərənnüm edib...

Ancaq məsələ həm də ondadır ki, bu gün həmin ölkədə millət xainləri də dillərini Azərbaycana tərəf uzadırlar. Belə ki, orada gizlənən terrorçu "Hüseyniyun" qruplaşmasının üzvü Azərbaycan dövlətinə və xalqına, eləcə də ölkə rəhbərliyinə qarşı böhtan dolu sərsəm açıqlamalar verib.

Beləliklə, davamlı olaraq Azərbaycan əleyhinə qərəzli yazılar dərc edən Tehran "respublikasının" "Əllamə Təbatəbayi" Universitetinin analitik saytı İranda gizlənərək Azərbaycana qarşı pozucu fəaliyyət göstərən "Hüseynçilər Hərəkatı" terror təşkilatının təbliğatçısı Orxan Məmmədovdan Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumu ilə bağlı müsahibə alıb. Saytı yazır ki, Orxan Məmmədov Azərbaycanda İranı "əsassız ittiham edənlərə" səslənərək iddia edib: "Yadınıza salın ki, hətta Bakıdan idarə olunan terrorçuların törətdiyi Şirazdakı Şahçıraq ziyarətgahına edilən hücum faciəsində də İran yenə də Azərbaycanı ittiham etmədi. Bəs siz heç bir dəlil və sübut olmadan, hətta ağlabatan və məntiqi təhlil olmadan İranı necə suçlayırsınız?".

Əlində heç bir əsası, faktı və dəlili olmadan Azərbaycana qarşı yalan, şər və böhtan hürən bu ikiayaqlı millət xaini göründüyü kimi, baş vermiş terror hadisəsini nəzərdən yayındırmağa cəhd edib və əksinə - bir neçə ay əvvəl Şiraz şəhərində yaşanmış terror aktını izafi həyasızlıqla ölkəmizin "ayağına" yazmağa cəhd göstərib.

Ciddi-cəhdlə "İran" adlı "məmləkətin" müdafiəsinə qalxan bu satqın əlavə edib: "Bu anti-İran hay-küyünün məqsədi tamamilə aydındır. Azərbaycanın İsraildə səfirliyinin açılmasına zəmin yaratmaq üçün son aylarda İranla münasibətləri qəsdən pozdular. İndi də şəxsi məsələlərə görə Azərbaycan səfirliyinə basqın etdiyini təkid edən şəxsin hücumuna görə haqsız və tamamilə əsassız olaraq İranı günahlandırırlar və NATO-nun Azərbaycana gəlməsinə zəmin hazırlamaq üçün təbliğat kampaniyasına başlayıblar..."

Görünür, hələ də ayağı isti yerdə olan, Azərbaycanın hüquq-mühafizə orqanlarının çoxsaylı tələblərinə baxmayaraq Tehran rejimi tərəfindən ölkəmizə təhvil verilməyən Orxan Məmmədov adlı xain yenə də həmin ümidində qalmaqda davam edir. Amma kökündən yanılır!

Bu gün milli azadlıqları uğrunda ayağa qalxan milyonlarla Cənubi Azərbaycan soydaşlarımız hələ ki, öz mübarizələrini aparırlar və vaxtı çatanda, QƏLƏBƏ qazanılanda, o taylı-bu taylı böyük və tarixi Azərbaycan torpaqları qovuşanda Azərbaycanı "arran" adlandıran Orxan Məmmədov, Tohid İbrahimbəyli kimi satqınların quyruqlarını qısma aqibətlərinin necə olacağını görəcəyik. Hələ ki, hürməyə davam etsinlər, amma nə barədəki hürüşlərini də unutmasınlar. Az qalıb, lap az!

***Rövşən RƏSULOV***

***P.S. Çox, hətta kifayət qədər çox inanmaq istərdik ki, Cənubi Azərbaycandakı vətənpərvər soydaşlarımız fars şovinistlərinin altına yıxılmış bu tulaların aqibətləri ilə ciddi şəkildə məşğul olacaqlar!***



# Qızara bilməyən qızlar

Lalə Mehralı

**İnsanda bir dəyər kimi qiymətləndirilən və şəxsiyyətin mənəvi-ruhi səviyyəsini ifadə edən bir neçə təbii xüsusiyyət var ki, onlardan biri də qızarmaqdır. Yox, söhbət təkcə utanmaqdan, xəcalət çəkməkdən, abır-həyaya qısılmaqdan getmir, həm də qızarmaqdan gedir.**

Bizim uşaqlığımız qızarma hadisələrinin bol müşahidəsi ilə keçib. Uşaq yalanımızın üstü açılanda, "cinayət" başında yaxalandıqda qızarırdıq. Həm də təkcə uşaqlar yox, böyüklər də qızarırdı. Hətta bu qızarma prosesi adamı ələ verirdi. Bunu gizlətmək mümkün deyildi. Hansısa daxili sehirli qüvvə adamı buna məcbur edirdi. Bu proses bədii ədəbiyyatda, utanc, həya, abır, xəcalət kimi sözlərlə yanaşı ifadə edilir.

İndi insanların çoxu qızara bilmirlər. Çünki utanc sayılan şeylər artıq çoxdan qürur yeri sayılır. İnsanın hansı intim yeri qaldı ki, televizorda göstərməsinlər? İnsanın hansı əxlaqsızlığı, xəyanəti, murdarlığı, şərəfsizliyi, eqoistliyi, tərbiyəsizliyi, həyasızlığı qaldı ki, tərif və təbliğ etməsinlər?

İnsan təkcə maddi varlıq deyil, daha çox ruhi-mənəvi şəxsiyyətdir - bu, həm dini, həm elmi olaraq əsaslandırılmış aksiomadır. Bəs o zaman nə üçün son vaxtlarda bu mənəvi şəxsiyyəti maddi şəxsiyyətimiz yeyib sıradan çıxarır? Axı bu ikiliklərin vəhdəti fəlsəfəsinə ziddir? Yarımçıq varlıq İNSAN adlana bilməz. Mənəvi dəyərlərin başında əxlaqi prinsiplər - vicdan, humanizm, abır-həya, fədakarlıq, yaradılışa sevgiylə yanaşma kimi xüsusiyyətlər dayanır. Bunlar olmayanda maddi bədən reaksiya verə bilməz. Mən biləni heyvanlar qızarmırlar...

Qızarma ruhi canın qarşısında maddi bədənin günahı olduğu zaman ruhun adekvat reaksiyasıdır. Yəni, bizi hansısa daxili qüvvə qeyri-əxlaqi, qeyri-vicdani hərəkətə görə utanmağa, xəcalət çəkməyə və nəhayət qızarmağa məcbur edir. Başqalarını deyə bilmərəm, şəxsən mən son dövrlərdə qızaran adama demək olar ki rast gəlməmişəm, baxmayaraq ki müşahidə etdiyim adamlarda bunun baş verməsi üçün kifayət qədər çox əsas verəcək hallarla qarşılaşmışam.

Lakin bu, o demək deyil ki, belə adamlar yoxdur, o deməkdir ki, xeyli azalıb. Məni əslində daha çox qızların qızarmaması narahat edir. Bu daha çox onlara xas xüsusiyyət olmalıdır. Amma indi əksər qızlarımız bu xüsusiyyəti sanki şüuraltında dəfn edib unudublar. Bu hiss atavizm qalığı kimi təkamül prosesində ləğv olub gedib.

Axı müasirləşirik, sərbəstləşirik, inkişaf edirik. Ata qızdan evə niyə gec gəldiyini soruşanda utanıb qızarmadan yalan danışmaq adiləşib. İctimai yerdə sevgilisi ilə utanıb-qızarmadan öpüşmək adiləşib. "Cinayət başında" yaxalananda belə qızarmadan bunu inkar etmək və özünə haqq qazandırmaq adiləşib.

Bir vaxtlar atanın yanında abırlı paltarda dolaşan qız, indi şalvar adı verilmiş dar kalqotkada, mini yubkada, yataq geyimində gəzişir və bundan utanıb-qızarmır da. Bir vaxtlar atanın yanında kosmetikalı sifətdə görünməyən qızlar indi həmin atanın gözləri önündə müxtəlif rənglərdə olan təhlükəli kimyəvi "kraska"ları sifətinə yaxır.

Toyda, ziyafətdə kompotu utana-utana içən, danışanda səsini yüksəyə qaldırmayan qızlar, indi araq-çaxırdan vurub yerli və əcnəbi müğənnilərin oxuduğu tərbiyəsiz sözlərdən ibarət əcaib-qəraib çığır-bağırlarının müşayəti altında ortalıqda sərxoş halda erotik rəqslər edir. Heç utanıb-qızarmadan. Görəsən, beyində qızarma hormonlarını ifraz edən mərkəzə necə və nə ilə təsir edirlər ki, o sistem işləmir? Anatomik alimlər gərək bunu araşdırsın. Sosioloqlar isə aydınlaşdırsın görək, dəyərləri, dəbləri kim müəyyən edir və cəmiyyətə tətbiq etdirir. Psixoloqlar araşdırsın ki, yaxşı hərəkətlər necə pis, pislər necə dönüb yaxşı sayılır.

Formanın məzmundan üstün olduğu cəmiyyətlər əxlaqsız cəmiyyətlər sayılır. Bizim cəmiyyət belə olmayıb, olmamalıdır da. Əgər bu yazını oxuyanların arasında yuxarı dediyim tipdən qızlar varsa və yazını oxuyarkən qızardılarsa, deməli, hələ heç nə itirilməyib.

# "Məsuliyyət molla rejiminin üzərindədir"

## Elşən Musayev: "İran isə məkrli və riyakar qonşumuzdur"

***- Elşən müəllim, Azərbaycanın səfirliyinə olan xain hücum bir daha molla rejiminin, terrorçu rejim olduğunun əyani təsdiqi sayıla bilər?***

- Terrorun İran ərazisində baş verdiyinə görə, məsuliyyət də birbaşa bu dövlətin üzərindədir. İranın təhlükəsizliyə cavabdeh olan qurumları həmin terrorun qarşısını almağa borclu idi. Çünki səfirlik Azərbaycanın suveren ərazisidir və həmin əraziyə hücum beynəlxalq hüquqa görə, Azərbaycana hücum deməkdir. Amma İran nəsə etdimi? Etmədi. Üzərinə düşən öhdəliyi anladımı? Anlamadı. Ona görə də, bu hadisə baş verdi. Sırf molla rejiminin məsuliyyətsizliyi, səhlənkarlığı ucbatından. Ona görə də, qətiyyətlə deyirik ki, İran öz ərazisində törədilən cinayətə, terrora görə daxili və beynəlxalq müstəvidə cavab verməlidir!

***- Azərbaycan səfirliyi tamamilə fəaliyyətini dayandırdı. Bundan sonra proseslər hansı məcrada inkişaf edəcək?***

- Bu, gözlənilən idi. Belə şəraitdə səfirlik fəaliyyətini davam etdirə bilməzdi. Çünki təhlükəsizliyə təminat, zəmanət yoxdur. Üstəlik, nəzərə alın ki, səfirlik əməkdaşının igidliyi nəticəsində daha geniş masştablı, miqyaslı cinayətin qarşısı alınıb. O olmasaydı, yəqin ki, qatil, cinayətkar bütün səfirlik əməkdaşlarını qətlə yetirməyi planlayırdı. Bu cür şəraitdə səfirliyin təhlükəsizliyinə kimsə



**Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin "Səs" qəzetinə müsahibəsi**

cavabdeh olmalıdı. Kimsə deyərkən, konkret olaraq - İran. Onlar isə hələ faktiki cinayətkarı TV qarşısına çıxarıb müsahibə verdirməklə məşğuldurlar. Yəni, etinasızlıq, prosesi düzgün dərk etməmək İranın timsalında yenə də özünü açıq şəkildə büruzə verir və güman ki, bilərəkdən.

***- Molla rejimi etdiyi qanlı terrora görə Azərbaycan xalqından, dövlətindən hələ də üzr istəməyib. Bu yaramazlıq nə ilə bağlıdır?***

- Onlar hələ də işin mahiyyətini, məsələnin nə boyda kritika yaradacağını anlamırlar. Ya da anlayırlar, sadəcə, özlərini anlamazlığa vururlar. Həmin üzr ilkin mərhələdə olmalı idi, amma olmadı. Əksinə, bir az da cızıqdan çıxdılar, təxliyyəni yubatdılar, süni əngəllər yaratdılar. Bu isə o deməkdir ki, İran nə cinayətin obyektiv şəkildə araşdırılmasında maraqlıdır, nə də təqsirini boynuna almaqda. Yəqin xatırlayırsız, terrorun ilk günü hələ utanmadan deyirdilər ki, bu cinayət məişət zəminində olub. Ayıbdır! İran adına həqiqətən ayıbdır! Elə o mənasız, səbatsız, absurd "məişət açıqlaması" bir daha göstərir ki, İran ədalətli deyil, məkrlidir və məsuliyyəti boynundan atmağa çalışır.

***- Artıq İsraildə İrana qarşı hərbi əməliyyatlara başladığı deyilir. Regionda yeni bir müharibə ocağı yarana bilərmi?***

- İsrailin İranla münasibəti haqda nəsə deyə bilmərəm. Amma İsrail bizə dost ölkədir və onlarla sərhəd qonşuluğumuz, din birliyimiz olmasa da, bizə qarşı münasibətdə hər zaman mərdyanə, kişiyanə davranıblar. İsrail praqmatik, faydalı və strateji tərəfdaşdır. İran isə məkrli və riyakar qonşumuz!

***- Sizcə, İsrail İran müharibəsi qanlı toqquşmalarla müşayiət olunarsa, Azərbaycana hansısa bir formada zərər vura bilərmi?***

- Azərbaycana bundan sonra kimsə ziyan vura bilməz. Çünki öz ayağımız üstündəyik və hər kəsin cavabını verməyə qadirik.

***- İran İsrail müharibə baş verərsə, Ermənistan hansı formada molla rejiminə kömək edəcək?***

- Ermənistanın öz halına ağlayan lazımdır. Dağılıb-tökülür. Nə sabit siyasi sistemləri var, nə düzənli iqtisadiyyatları, nə normal liderləri. Dizini qoyub yerə. Bütün günü hansısa ölkəyə, hansısa beynəlxalq təşkilata yalvarır. Beləsindən kimsə xeyirmi dəyər və ya dəyə bilər? Əsla! Hə, Ermənistan təbii ki, bütün mövzularda və məsələlərdə İranın yanında olacaq. Çünki terror onlar üçün doğma ənənədir, doğma icraatdır. Amma bir daha qeyd etmək istəyirəm: Ermənistanın güc əmsalı, yararlığı bu gün sıfırın da altındadır. Sıfırı isə neçəyə vursan yenə sıfır edir.

***Gülyana***

ŞƏRH+AKTUAL

# İrəvanda və Xankəndidə rusofobiya meyilləri artır!

**"Kremlyovskaya praçka" yazır: "102-ci baza olub, var və olacaq, hətta erməni banan respublikasını baş-ayaq edərək onu silkələmək tələbi yaranarsa belə..."**




Rusiyanın nüfuzlu "Kremyovskaya praçka" analitik teleqram kanalı növbəti dəfə Ermənistanda artan anti-Rusiya meyilləri barədə sərt yazı ilə çıxış edib. Yazıda bildirilir ki, erməni radikalları Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasında keçirdikləri mitinqlərinə sanki işə gedirmiş kimi yollanırlar. Belə ki, növbəti mitinq günü də istisna deyil. Adıçəkilən kanalın yazdığına görə, əgər rus hərbçiləri olmasa idi banan respublikasının bədbəxt mövcudluğu çoxdan qeyri-mümkünlüyə çevrilərdi: "Lakin sabit olaraq, təxminən həftədə bir dəfə rusiyalı əsgərlər degeneratların müxtəlif rusofob çığır-bağırlarını eşitməli olurlar. Onların şüarları dəyişmir. Rusiyanı əsassız qaydada" Laçın dəhlizinin blokadadan çıxara bilməməkdə, bacarıqsızlıqda, acizlikdə" ittiham edirlər. "Desertə" isə rusiyalı sülhməramlıların Qarabağdan çıxarılmasını və 04436-cı hərbi hissəni bağalanmasını tələb edirlər".

**"Əgər Paşinyan həqiqətən də "Moskvanın agenti" olsaydı, çətin ki, rusofob erməniciklər mütəmadi şəkildə belə var-gəllər edərdilər"**





"Görünür, rəsmi İrəvan marginallara himayədarlıq edir", yazan "Kremlyovskaya praçka"ya görə, bunun müqabilində aksiyada "Kreml Nikolun ağasıdır" plakatlarını görmək gülünc təsir bağışlayır: "Sözdə "milli-demokratik qütbü"nün simbiozu və erməni hökuməti bu cür uşaq oyunu cəhdləri ilə hansısa gözləri yayındırdıqlarını real olaraqmı düşünürlər? Əgər Paşinyan həqiqətən də "Moskvanın agenti" olsaydı, çətin ki, rusofob erməniciklər mütəmadi şəkildə belə var-gəllər edərdilər".

Kanal yazır ki, burada ikili oyun ola bilməz. Belə ki, "qardaş xalqlar" haqqında "nəğmələr" oxunsa da, Ermənistan Qərbin əl oyuncağına çevrilib: "Görünür, kuratorları tərəfindən Rusiyaya məxsus hərbi obyektlərin funksiyalarının və imkanlarının məhdudluğu, ardınca isə onların qovulması ilə bağlı erməni əhalisinin beyinlərin yuyulması prosesi öz bəhrələrini verməyə başlayıb. Lakin onlar və onlara satılmış İrəvanın cəhdləri havayıdır. Rusiya hərbçilərinin Gümrüdəki mövcudluğu Rusiyanın Cənubi Qafqazdakı maraqlarını təmin edən mühüm amildir. Ona görə də 102-ci baza olub, var və olacaq, hətta erməni banan respublikasını başayaq edərək onu sirkələmək tələbi yaranarsa belə".



**Qarabağdakı separatçılar RSK-ya şər atmağa başlayıb (?)**

Bu arada onu da xatırladaq ki, rusofobiya faktı artıq Qarabağda müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingentinə qarşı da artmağa başlayıb. Onlar RSK rəhbərliyini hədəfə almaqla iddia edirlər. Guya Ermənistandan Xankəndiyə göndərilən humanitar yüklər arasında kompüterlər, planşetlər və s. avadanlıqlar olub, rusiyalı sülhməramlılar isə həmin avadanlıqları mənimsəyərək ermənilərə vermirlər. Üstəlik, sonradan əlavə maddi vəsaitlər tələb olunub ki, avadanlıqlar Xankəndiyə aparılsın, amma ermənilər buna razılıq verməyəndən sonra RSK təmsilçiləri bəyan ediblər ki, həmin avadanlıqlar yolda gətirilərkən sıradan çıxıblar və s.

Beləliklə, artıq Ermənistandakı anti-Rusiya meyilləri Qarabağdakı separatçılara da sıçrayıb və belə bir faktın ortaya çıxması, əslində, erməni tərəfinin çıxılmazlığını isbatlayır. İstər Ermənistanın baş naziri Nikol Paşinyan olsun, istəyir XİN başçısı Ararat Mirzoyan olsun, istəyirsə də Qarabağdakı məngənədə sıxışıb qalmış Ruben Vardanyan və digər cinayətkar rejim təmsilçiləri olsun - onların vaxtları tükənib. Son çırpınışlar isə əlbəttə ki, nəticəsiz qalacaq!

***Rövşən RƏSULOV***

# Dini siyasət, yoxsa siyasi din?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

**Din Yaradanın insanlara məsləhət gördüyü yaşam tərzi və mənəvi qaydalar toplusudur. Tanrı insanların bu qaydalara əməl edərək maddi və ruhi dünyada həqiqi səadətə yetişməsini istəyir. Din insanları qardaşlığa, səmimiyyətə və birləşməyə çağırır. Çox təəssüf ki, bütün dövrlərdə və bütün ölkələrdə dindən siyasi məqsədlərlə istifadə cəhdləri olub və bu da son nəticədə özü ilə çoxsaylı problemlər gətirib. Bir çox ölkələr isə artıq bu acı tarixi təcrübənin təkrarlanmamması üçün dinin siyasiləşməməsi, onun öz həqiqi missiyasını yerinə yetirməsi üçün xüsusi yanaşma ortaya qoyurlar. Azərbaycan da belə ölkələrdəndir.**



Hazırda dünyada 8 milyard insan yaşayır ki, bunun da təxminən 1,5 milyard nəfərini müsəlmanlar təşkil edir. Dünyada 50-dən artıq müsəlman ölkəsi var ki, Azərbaycan bu sıraya daxildir. Azərbaycan dindarlarının əksəriyyəti müsəlmanlardır. Bu xalq ta qədimlərdən Yaradana sadiq, dini qayda və ayinlərə bağlı olub, hər zaman mənəvi dəyərlərə hörmət bəsləyib. Sovet dövründə dini qaydalara əməl etməklə bağlı məhdudiyyətlərə baxmayaraq, həmişə xalqın qəlbində Tanrı sevgisi olub.

Artıq 32 ildir ki, Azərbaycan özünün müstəqilliyini bərpa edib. Tarix üçün çox kiçik olan bu müddətdə ölkəmiz keçmiş SSRİ-yə daxil olan respublikalar arasında iqtisadi və siyasi cəhətdən müqayisə olunmaz dərəcədə yüksək sürətlə inkişaf edib. Azərbaycan artıq müasir dünyanın, bütün mütərəqqi beynəlxalq təşkilatların həqiqi üzvüdür. Ölkəmizdə bütün dini icmalar azad şəkildə fəaliyyət göstərir. Söz azadlığı, mənəvi dəyərlərin qorunması təmin edilib. Son vaxtları dini mövzularda yazanlarımızın sayı da çoxalıb. Dini inancı və yazdığı yazılara görə insanlar heç bir təzyiqlərə məruz qalmırlar. İnsanlarımız öz inandığı dinə rahat şəkildə xidmət edir və məbədlərə gedirlər. Ölkədə bir çox köhnə məscidlər, kilsələr, sinaqoqlar, məbədlər bərpa olunub. Ziyarətgahlar abadlaşdırılaraq dindarların ixtiyarına verilib.





Müstəqil Azərbaycanın qurucusu, dünya şöhrətli müdrik siyasətçi, ulu öndərimiz Heydər Əliyev uzaqgörən və müdrik fəaliyyəti nəticəsində müstəqil ölkənin vətəndaşlarına bütün bəşəri azadlıqların arasında, həm də dini etiqad azadlığını bəxş edib. İndi Azərbaycanda çox az yaşayış məntəqəsi tapılar ki, orada hansısa bir məbəd olmasın. Ölkədə bütün dini icmalar sərbəst və azad fəaliyyət göstərir.

Əlbəttə, bütün sahələrdə olduğu kimi, dini sahədə də müəyyən problemlər mövcuddur. Lakin insanlarımız dini qaydalar və müasir həyatın tələblərini uyğunlaşdıraraq öz həyatlarını düzgün yaşamağa çalışırlar. Lakin dini maariflənmənin aşağı olması səbəbindən müəyyən problemlər də yaranır. Belə ki, bəzi insanlar din haqqında səhv mülahizələr yürüdür və dinin tələblərini öz təriqətlərinə uyğun şəkildə izah edirlər. Bu da təriqətlər arasında münaqişəyə səbəb olur. Bu, həm dinə, həm də dövlətimizin məqsədlərinə zidd olan bir məsələdir.

Azərbaycanda mövcud olan dini təriqətlərin sərbəst fəaliyyət göstərməsindən sui-istifadə etmə halları var. Ölkədə qanunsuz fəaliyyət göstərən zərərli dini təriqətlər də mövcuddur. Azərbaycana qarşı düşmən mövqedə olan xarici ölkələrin xüsusi xidmət orqanları, bəzi terror təşkilatları öz çirkin niyyətlərini həyata keçirmək üçün dini təriqətlərdən istifadə edirlər.

İslam dininin təbliği və dini ayinlərin həyata keçirilməsi ilə məşğul olan ruhanilərin- ”din xadimlərinin” savadsızlığı, islam dininin düzgün təbliğ olunmaması, insanların dini inanclarının çaşdırılması və mövhumatın meydana gəlməsinə gətirib çıxarır. Dini icmalarda yüksək təhsilli ruhanilərin çatışmazlığı və ictimai tədbirlərdə, məclislərdə dini qaydalar haqda insanlara düzgün məlumat verilməməsi buna gətirib çıxarır ki, cəmiyyətdə dinin əsl mahiyyəti haqda məlumatsızlıq yaranır.

Təhsil müəssisələrində müxtəlif dinlərin yaranma tarixi və təşəkkül tapması bu dinlərdə insani əxlaqi dəyərlər haqqında tələb və tövsiyələrin tədrisinin aparılmaması nəticəsində gənclərin dini baxışları səhv formalaşır, bundan yararlanan bəzi qüvvələr isə dövlətə və dövlətçiliyə qarşı istifadə edirlər. Bu çatışmazlıqları bərpa etmək üçün təbii ki, müəyyən vaxt lazımdır.

Azərbaycanda dini təhsilə də böyük önəm verilir. Ölkəmizin ali məktəblərindən biri olan Bakı İslam Universitetində və digər universitetlərin ilahiyyat fakültələrində xeyli gənc dini təhsil alır. Bundan başqa, onlarla gənc islam ölkələrinin aparıcı universitetlərində təhsillərini davam etdirirlər. Bütün bunlar qəti fikir söyləməyə əsas verir ki, Azərbaycanda savadlı ilahiyyatçılar yetişməkdədir.



21 iyun 2001-ci il tarixdə Prezident Heydər Əliyevin 512 nömrəli fərmanı ilə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi yaradıldı. Keçən dövrdə bu komitə bu sahədə sağlam mühitin formalaşması üçün çox böyük işlər görüb. Azərbaycan dövləti dini icmalara xüsusi qayğı göstərir, onlara rahat fəaliyyət üçün hər cür imkanlar yaradır. Minlərlə dini məbəd dövlət hesabına tikilib və ya təmir olunub. Din xadimləri dövlətdən hər cür dəstək görürlər. Ökədə dini konfessiyalar arasında sağlam münasibət və dini tolerantlıq hökm sürür. Dinlər arasında sülh və əmin-amanlıq mövcuddur. Lakin unutmamalıyıq ki, Azərbaycanda bu münasibətlərin qorunub saxlanması təkcə bir dövlət komitəsinin yox, hər bir vətəndaşın borcudur.

Din təkcə mənəvi həyat tərzi deyil, həm də fiziki cəhətdən sağlam cəmiyyətin formalaşmasına xidmət edən bir faktordur. Müasir dövrün ən böyük bəlalarından biri olan narkomaniya və mənəvi düşkünlüyü aradan qaldırmaq üçün dini təbliğ edən insanlar mənəvi və əxlaqi dəyərlərdən geniş söhbət açmalı, insanları maarifləndirməlidirlər. Bu məqsədlə, əsasən, gənclər arasında düzgün dini təbliğat, araşdırma və tövsiyəyə ehtiyac duyulur. Getdikcə bu nöqsanlar düzəlmək üzrədir.

Dövlət Komitəsi və digər aidiyyatı dövlət orqanları əlaqəli fəaliyyət göstərməklə, zərərli təriqətlərin (qeydiyyatda olan və olmayan) vaxtında aşkar edilməsi və fəaliyyətinin yoxlanılmasını, Dövlət Komitəsinin rəhbərliyi altında dini fəaliyyətlə məşğul olan ruhanilərin hazırlıq səviyyəsinin (təhsil, savad, bilik və bacarığın) yoxlanması və fəaliyyətin daimi nəzarətdə saxlanmasını təmin etməlidir. Bu zaman dini fəaliyyətlə məşğul olan ruhanilərin şəxsi əxlaq keyfiyyətlərini ciddi diqqət mərkəzində saxlamaq lazımdır. Onların əsas fəaliyyət sferası səmimiyyətə və düzgünlüyə köklənməlidir.

Siyasi fəaliyyətlə məşğul olan, xarici mərkəzlərin mənafeyi üçün çalışan və ölkədə dini zəmində qarşıdurma yaratmağa çalışan saxta din xadimləri aşkar olunmalı və cəzalanmalıdır. Dövlət və cəmiyyət arasında səmimi münasibətlərin davamlı olması üçün din faktorundan düzgün istifadə edilməlidir. Bunun ən yaxşı nümunəsini isə Azərbaycan dövləti və cəmiyyəti arasında olan münasibətlərdə görmək olar.

**Elçin**

# Eyni anda necə 2 diplom almaq olar?



"Azərbaycan universitetləri xarici universitetlərlə müqavilə bağlayır və ikili diplom proqramından istifadə edirlər. Məsələn, Bakı Mühəndislik Universiteti (BMU) ilə Koreya Universiteti arasında ikili diplom proqramı ilə bağlı müqavilə imzalanıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Adil Vəliyev deyib.

Onun sözlərinə görə, tələbə universitetə qəbul olduqda onun üçün əlavə daxili imtahan təşkil olunur: "İmtahanı keçdikdən sonra tələbə 3 il BMU-da, geri qalan 1 ilini isə Koreya Universitetində təhsil alır. Təhsilini başa vurduqdan sonra tələbəyə həm BMU-nun, həm də Koreya Universitetinin diplomu verilir. İxtisası seçərkən ikili diplomu olan universitetləri seçməyə diqqət yetirmək lazımdır".

Ekspert sözlərinə davam edərək bildirib ki, bundan əlavə, Azərbaycan daxilində universitetlərdən iki diplom almaq da mümkündür: "Sadəcə, çox tələbənin bundan məlumatı yoxdur. Bir-birinə oxşar ixtisaslarda dərslərin təxminən 70%-i eyni olduğu üçün hər ikisində də təhsil alıb, iki oxşar ixtisasın diplomunu əldə edə bilərlər. Məsələn, bir tələbə maliyyə ixtisasına qəbul olubsa, eyni anda mühasibatlıqda da təhsil ala bilər. Bu, Azərbaycan universitetlərinin hamısı üçün keçərlidir. Çünki bu məsələ "Təhsil Haqqında" Azərbaycan Respublikasının qanununda əks olunub".

***Ləman Əlizadə***

# Süni intellektin inkişafının cəmiyyətə təsiri necə olacaq?







ARAŞDIRMA

***Bu gün həyatımızı özü idarə olunan avtomobillər və ya ağıllı məişət avadanlıqları olmadan təsəvvür edə bilmirik. Lakin çox az adam bütün bunların süni intellekt həlli, tarixi bir neçə minilliklər boyu inkişaf etdirilən mürəkkəb, bir-biri ilə əlaqəli texnologiyaların ekosistemi olması haqqında düşünür. Süni intellekt termininin təxminən 30 il əvvəl bir alim metal humanoid dizayn edir və ona ağıl bəxş edir, ardınca isə onun beynini süni intellektə köçürür. Hətta qədim Yunanıstanda ulduzların vəziyyətinin proqnozlaşdırılması üçün mexanizmlər yaradılmışdır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İki min il sonra isə ərəb ixtiraçısı əl-Cəzari dörd avtomatomatik qayıqdan ibarət musiqi mexanizmini təqdim edir və bir qədər sonra Leonardo da Vinçi insan kimi hərəkət edə bilən robot dizayn edir. Bunun sayəsində müasir dövrdə Hobbes, Leibniz, Pascal, Descartes kimi elm adamları və filosoflar arasında insanın bütün hərəkətlərinin və hətta təfəkkürünün maşınlar tərəfindən təqlid oluna biləcəyi fikri möhkəmlənmişdir.

Lakin süni elektron intellekt ideyasının daha realist olması üçün daha 300 il lazım olur. Yalnız 1937-ci ilə qədər Alan Turinq Turinq maşını kimi bildiyimizi, hər hansı bir alqoritmi yarada bilən hipotetik bir maşın təsvir edir. A. Turinq hər cür hesablamanın rəqəmsal formada təqdim oluna biləcəyini təklif edir və elm adamları ilk ağıllı maşınların inkişafına keçirlər. Həm aparat, həm də proqram təminatının tam yararsızlığı səbəbindən cəhdləri böyük ölçüdə uğursuz olsa da, müasir süni intellektin tarixini məhz bu andan saymaq olar.

Süni intellektin praktikada geniş tətbiq tapmış sahələrindən biri əsası dahi həmyerlimiz Lütfi Zadə tərəfindən qoyulmuş qeyri-səlis məntiqdir. Azərbaycan alimləri tərəfindən qeyri-səlis məntiq və idarəetmə, süni neyron şəbəkələri, evolyusiya metodları, qərar qəbulunu dəstəkləyən intellektual sistemlər, ekspert sistemləri kimi süni intellekt mövzuları geniş tədqiq olunub və bir sıra praktiki həllər təklif edilib. Son onillikdə verilənlərin intellektual analizi, maşın öyrənməsi sahəsində də fundamental və tətbiqi tədqiqatlar aparılıb, bir sıra diqqətəlayiq nəticələr əldə edilib. Eyni zamanda, hazırda e-hökumətin inkişafı və rəqəmsallaşdırma strategiyası çərçivəsində bir sıra süni intellekt əsaslı tətbiqlərin işlənməsi həyata keçirilir.

**Sosial Media Mütəxəssisi Aynurə Azayeva:** "Süni intellekt (AI) müasir texnoloji inkişafın öncüsüdür və cəmiyyətin bütün sahələrinə töhfə verir. AI, məlumatların təhlili, nəticələrin proqnozlaşdırılması və qərar qəbulu kimi prosesləri sürətləndirir, səmərəliliyi artırır və səhvləri azaldır. İlk növbədə səhiyyə sektorunda AI xəstəliklərin erkən aşkarlanmasına və müalicə planının müəyyənləşdirilməsinə kömək edə, həcmi çox olan tibbi məlumatlar skan edilə və xəstəliklərin daha erkən aşkarlanmasına şərait yaradır.

AI həmçinin istehsal proseslərini optimallaşdıra, istehsal sürətini və keyfiyyətini artıra və uğursuzluq dərəcəsini azaldır. Sənaye sahələri arasında kənd təsərrüfatı, e-ticarət və maliyyə xidmətləri kimi sahələrdə süni intellekt vasitəsilə dekommunizasiya əldə edilir.

AI, məlumatları daha səmərəli təhlil etmək və nəticələri proqnozlaşdırmaq imkanı verən maşın öyrənmə və məlumat analitikasında da irəliləyiş əldə edib. Nəticədə AI yeni iş yerləri yaradır və iqtisadi böyüməyə kömək edir. Gələcəkdə AI-nin cəmiyyətə verdiyi töhfələr daha da artacaq və texnologiyanın inkişafı ilə daha da artacaqdır. Bununla birlikdə, AI-nin müsbət və mənfi cəhətləri var.

**Müsbət tərəfləri**

**Performansın yaxşılaşdırılması:** AI daha sürətli və daha dəqiq məlumat təhlili ilə performansı artırır. Xəstəliklərin erkən diaqnozu: səhiyyə sektorunda AI xəstəliklərin daha erkən diaqnozuna imkan verir. İnsan səhvlərinin azaldılması: AI məlumatları düzgün idarə etməklə insan səhvlərini azaldır.

**Maşın öyrənmə və məlumat analitikası:** AI məlumatları daha səmərəli təhlil etməyə və nəticələri daha dəqiq proqnozlaşdırmağa imkan verir. Tədris materialları: tədris materialları, imtahan sualları və oxşar məzmun yaratmaq üçün istifadə edilə bilər. Süni intellektdən istifadə edərək, ChatGPT, Mudjourney və s. mükəmməl işlər hazırlamaq olur.

**Mənfi cəhətləri**

**İşçi qüvvəsinin azaldılması:** AI-nin tətbiqi işçi qüvvəsinin azalmasına və işsizliyin artmasına səbəb ola bilər. Təhlükəsizlik problemləri: AI məlumatlarının təhlükəsizliyi və qorunması ilə bağlı narahatlıqlar var. Fərdi hüquqların pozulması: AI məlumatlarının toplanması və istifadəsi fərdi hüquqların pozulmasına səbəb ola bilər.

Nəticədə, AI hər gün daha populyarlaşır və səmərəliliyi artıraraq səhvləri azaldır. ChatGPT, NLP istifadə edərək suallara cavab vermək və mətn yaratmaq kimi tətbiqlərdə istifadə edilə bilən Openaı tərəfindən öyrədilmiş bir dil modelidir. Düzgün və paralel istifadə etsək, zaman və intellekt baxımından çox irəli düşərik".

***Havar Şəfiyeva***

## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

"Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi": orqanologiya və akustika elmi laboratoriyası

Böyük elmi işçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

***Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**